

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Tarixi yaradan və yaşadan BÖYÜK AZƏRBAYCANLI!



8


№ 089 (6772)

23 may 2023-cü il.
Qiymәti 60 qәpik


# Azərbaycan-Litva: əməkdaşlıqda yeni hədəflər



2

İlham Əliyev: "Müasir infrastrukturumuz Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin ildən-ilə artmasına imkan yaradır"

# G7-dən Rusiyaya Xirosima gedişi



Sammit Qərbin Moskvaya qarşı sərt mövqeyini nümayiş etdirdi

4

## Uşaqlar evdən qaçır, yoxsa qaçırılır?



15

## "ABŞ və Azərbaycan bir çox istiqamətlərdə müttəfiqlik əlaqələrinə sahibdir"



9

## Yeni Azərbaycan Partiyası Mərkəzçi Demokrat İnternasionalının tədbirlərində təmsil olunub



4




## Prezident seçkiləri: Qalib türk dünyası olacaq

6

## Hansı xəstəlikdən əziyyət çəkənlər ana ola bilməz?



16

# Azərbaycan-Litva: əməkdaşlıqda yeni hədəflər

## İlham Əliyev: "Müasir infrastrukturumuz Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin ildən-ilə artmasına imkan yaradır"

Azərbaycan müstəqillik qazandıqdan sonra dünya dövlətləri ilə diplomatik münasibətlərin qurulmasında uğurlu addımlar atmışdır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında qurmuşdur. Bu münasibətlər qarşılıqlı əməkdaşlığa, dostluğa əsaslanır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra müstəqilliyimizi ilk tanıyan dövlətlərdən biri də Litva Respublikası olmuşdur. Baltikyanı ölkələrdən olan Litva ilə münasibətlərdə həm də hər iki ölkənin BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıqları mövcuddur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 21-də Litva Respublikasına rəsmi səfəri bu əlaqələrin yüksələn xətlə inkişafına əsaslanır. Hər iki dövlət qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu nəzərə alaraq, yüksək səviyyəli dialoq və əməkdaşlıq qurub. Hazırda da bu əməkdaşlığı inkişaf etdirmək üçün mühüm addımlar atmaqda davam edir. Məlumdur ki, Litva ilə Azərbaycan strateji tərəfdaşdırlar. Ölkələr arasında imzalanmış Strateji Tərəfdaşlıq üzrə Bəyannamə əməkdaşlığın mahiyyətini əks etdirir. Xatırladaq ki, hələ 2007-ci il sentyabr ayının 13-də Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri çərçivəsində iki ölkə arasında imzalanan "Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında" birgə bəyannamə ölkələrarası əməkdaşlığın inkişafında mühüm hüquqi baza olmuşdur.

### "BİZ GENİŞ FİKİR MÜBADİLƏSİ ƏSNASINDA BİR ÇOX ÖNƏMLİ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ ETDİK"

Dövlət başçısının növbəti səfəri çərçivəsində bir çox məsələlər müzakirə olunub. Belə ki, mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Gitanas Nausedanın iştirakı ilə Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub. "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Litva Respublikasının Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Litva Respublikasının Sosial Təhlükəsizlik və Əmək Nazirliyi arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Litva Respublikasının Baş Prokurorluğu arasında 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramı"ı imzalanıb."Bu gün biz geniş fikir mübadiləsi əsnasında bir çox önəmli məsələləri müzakirə etdik, bir daha bizim strateji tərəfdaşlığımızı təsdiqlədik. Keçən il Prezident Nauseda Azərbaycanda rəsmi səfərdə idi, bu il isə mən Litvada rəsmi səfərdəyəm. Biz bu ilin əvvəlində Davosda da görüşmüşdük. Yəni, bu, özlüyündə onu göstərir ki, aramızda çox fəal siyasi dialoq aparılır və bu dialoq konkret nəticələrlə də tamamlanır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 22-də Vilnüsdə Litva Prezidenti Gitanas Nauseda ilə mətbuata bəyanatında bildirib. Siyasi müstəvidə əldə edilmiş razılaşmaların bütün digər sahələrə də müsbət təsirini göstərdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib ki, biz çox ümid edirik ki, gələcək illərdə iqtisadiyyat, ticarət sahələrində də siyasi səviyyədə olduğu kimi işlər sürətlə gedəcək: "Əminəm ki, bu gün keçiriləcək biznes forum bu istiqamətdə atılan önəmli addım olacaqdır".



"Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır"

tərəfimizdən bu məqsədə çatmaq üçün konstruktiv səylər göstərək. Təbii ki, bu sülh anlaşması beynəlxalq norma və prinsipləri əhatə etməlidir".

### İXRAC EDİLƏN QAZIN HƏCMİ İLDƏN-İLƏ ARTIR VƏ ARTACAQ

Litva ilə ikitərəfli əməkdaşlıq çərçivəsində, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələri də önəmli rol oynayır və Litvaya bu əlaqələrin inkişafı üçün göstərdiyi səylərə görə təşəkkürümüzü bildiririk, - deyən dövlət başçımız qeyd edib ki, Prezident Nausedanın Azərbaycana səfər edəndən iki ay sonra Avropa Komissiyası ilə Azərbaycan arasında Bakıda enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır və bu Memorandum uğurla icra edilir. Azərbaycan təbii qazının Avropa bazarlarına nəql edilməsi ilə bağlı çox ciddi addımlar atılır. Nəql edilən, yəni, ixrac edilən qazın həcmi ildən-ilə artır və artacaq.Məlumdur ki, Azərbaycan enerji təhlükəsizliyini 100 faiz təmin edir. Eyni zamanda, ölkəmiz Avropa İttifaqı üzvlərinin də enerji təhlükəsizliyinə töhfə verir. İxracatda neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları var, başqa sözlə, Azərbaycanın enerji resurslarına ehtiyac kifayət qədər böyükdür. Avropa İttifaqı Azərbaycanın əsas ticari tərəfdaşıdır, Litva da Avropa İttifaqının üzvü kimi bu əməkdaşlıq münasibətləri-



"Azərbaycanın enerji resurslarına ehtiyac kifayət qədər böyükdür"

### "SÜLH DANIŞIQLARININ APARILMASI NƏTİCƏ ETİBARİLƏ QAFQAZA UZUNMÜDDƏTLİ SÜLH GƏTİRƏCƏK"

Səfər çərçivəsində regional məsələlərlə də bağlı geniş fikir mübadiləsi aparılıb və dövlətimizin başçısı Litva Prezidentini Azərbaycan-Ermənistan sülh danışıqları haqqında məlumatlandırıb. "Sülh danışıqlarının aparılması nəticə etibarilə Qafqaza uzunmüddətli sülh gətirəcək", - deyə Prezident bildirib ki, Azərbaycan torpaqları uzun illər ərzində - 30 ilə yaxın Ermənistanın işğalı altında idi. Bir milyon azərbaycanlı bu işğal nəticəsində öz doğma torpaqlarından didərgin düşmüşdür, ərazilərimizin təxminən 20 faizi işğal altında idi. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər bölgədə yeni reallıqlar yaradıb. Azərbaycan sülhsevər dövlət olaraq hər zaman sülhün, təhlükəzliyin təminatçısı olaraq çıxış edir. İnkişaf və tərəqqi yolunda olan Azərbaycan, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini genişləndirməkdə davam edir. Qətiyyətli, prinsipial mövqe nümayiş etdirir. Prezident İlham Əliyev bəyanatında bu fikri bir daha diqqətə çəkib: "İşğal edilmiş ərazilərdə demək olar ki, bütün infrastruktur, binalar, o cümlədən tarixi abidələr işğalçılar tərəfindən dağıdılıb. Biz hesab edirik ki, sülh anlaşmasının imzalanması qaçılmazdır və çalışırıq ki, öz

nin bir parçası olaraq Azərbaycanla əlaqələrin gələcəyinə də inamla baxır.

### NƏQLİYYAT-KOMMUNİKASİYA İMKANLARINI YARATMAQ ÜÇÜN ÖLKƏLƏRİN PAYINA BÖYÜK VƏZİFƏLƏR DÜŞÜR

Biz bu gün, eyni zamanda, Litvada və Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması ilə də bağlı fikir mübadiləsi apardıq.

Ardı Səh. 3

# Azərbaycan-Litva: əməkdaşlıqda yeni hədəflər

İlham Əliyev: "Müasir infrastrukturumuz Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin ildən-ilə artmasına imkan yaradır"







**Əvvəli Səh.2**

Biz gördük ki, bu istiqamətdə də demək olar, paralel şəkildə gedirik, - deyə Prezident bildirib:"Həm Litvada, həm Azərbaycanda bu sahəyə çox böyük diqqət göstərilir və hesab edirəm ki, yaxın gələcəkdə bu sahədə də ikitərəfli əməkdaşlıq mümkün olacaq".

Ölkələrimizi birləşdirən və ümumiyyətlə, qitələri birləşdirən Avrasiya qitəsində daha da rahat nəqliyyat-kommunikasiya imkanlarını yaratmaq üçün ölkələrimizin payına böyük vəzifələr düşdüyünü qeyd edən Prezident "Biz razılaşdıq ki, müvafiq qurumlar bu məsələ ilə bağlı ciddi məşğul olacaqlar. Çünki dünyada hökm sürən yeni geosiyasi reallıq bunu diktə edir", - deyə vurğulayıb: "Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin ildən-ilə artdığını və artacağını qeyd edən Azərbaycan Prezidenti deyib:"Müasir infrastrukturumuz buna imkan yaradır. Xəzər dənizini, Cənubi Qafqazı Baltik dənizi ölkələri ilə birləşdirən nəqliyyat marşrutları da bəllidir. Sadəcə olaraq, biz birgə səylərlə həmin birləşmə layihələrini həyata keçirərək bu sahədə də uğurlu əməkdaşlığa nail olacağıq".

Mövcud münasibətlər ölkələr arasında bir çox sahələrində nailiyyətlərin əldə olunmasına səbəb olacaqdır. Bu görüşlər vahid mövqedən çıxış edən Litva və Azərbaycan Respublikaları arasında inkişafa impuls yaradır və qarşılıqlı əməkdaşlığın yüksələn xətlə inkişaf etdirilməsində mühüm rol oynayır.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Martyunas Mazvyudas adına Litva Milli Kitabxanası ilə tanış olub

**Mayın 22-də Vilnüsdə Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Litva Respublikasının birinci xanımı Diana Nausediene ilə görüşü olub. Daha sonra Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Litva Respublikasının birinci xanımı Diana Nausediene Martyunas Mazvyudas adına Litva Milli Kitabxanası ilə tanış olublar. Birinci xanım Mehriban Əliyevaya kitabxananın fəaliyyəti barədə məlumat verildi.**







Bildirildi ki, əsası 1919-cu ildə Mərkəzi Dövlət Kitabxanası kimi Kaunasda qoyulan bu elm mərkəzi Litvanın əsas elmi-kütləvi mədəniyyət müəssisəsidir. Sonradan adı bir neçə dəfə dəyişdirilən və 1963-cü ildə paytaxt Vilnüsə köçürülən kitabxana 1988-ci ildən Martyunas Mazvyudasın adını daşıyır. 1989-cu ildə ona Milli Kitabxana statusu verilib. Kitabxana 1993-cü ildən ölkənin mədəni irs reyestrinə daxil edilib. Bu, həmçinin Baltikyanı ölkələrdə inşa olunan ilk kitabxana binasıdır.

Kitabxananın əsas fəaliyyət istiqamətləri Litva xalqının yazılı mədəni irsinin toplanması, gələcək nəsillər üçün qorunub saxlanılması və ictimaiyyətə təqdim edilməsinə kömək göstərilməsidir. Kitabxananın fondunda 7 milyona yaxın (1,8 milyon adda) çap məhsulları və digər sənədlər saxlanılır.

Sonra xatirə şəkli çəkdirildi. Daha sonra kitabxana tərəfindən göstərilən xidmətlər, həyata keçirilən layihələr və bu mədəniyyət müəssisəsinin xarici əlaqələri barədə videoçarx nümayiş olundu. Sonda birinci xanım Mehriban Əliyevanın adından kitabxanaya Azərbaycanın mədəniyyəti, incəsənəti, tarixi, həmçinin Qarabağ və Şuşa haqqında kitablar hədiyyə edildi.

# G7-dən Rusiyaya Xirosima gedişi

## Sammit Qərbin Moskvaya qarşı sərt mövqeyini nümayiş etdirdi



**Dünyanın mizan-təzisi pozulub, bu, dəqiqdir. Meydanda ölüm-dirim savaşı supergüclər arasında gedir. Düzdür, əvvəllər də döyüşün tərəfləri elə indiki güclər idi, amma müharibələrin getdiyi meydan da, üzdə olanlar da başqa dövlətlər idi. 1990-cı illərdən sonra isə qabağa "iri kötükləri verdilər". Daha doğrusu müharibələrin sifarişçiləri arxa planda qalmaqdan yoruldular. Bu isə qarşıda bəşəriyyət üçün heç də xeyirli xəbərlərin olmayacağı bir dövrün gəldiyinə dəlalət edir.**

Xirosimada ABŞ-ın rəhbərlik etdiyi Qərb koalisiyasına daxil olan "Yeddilik" qrupunun sammiti keçirilib. Ukraynada hərbi əməliyyatların başlamasından sonra G7-nin ikinci illik toplantısı Kiyevin müttəfiqlərinin sülh danışıqlarını təşviq etməkdənsə, güc tətbiqi ssenarisinə əməl etmək və Rusiyanı məğlub etməyə çalışmaq əzmini təsdiqləyib. Xirosimanın əsas personajı qonaq qismində dəvət olunmuş Hindistanın baş naziri Narendra Modi də daxil olmaqla, sammitin demək olar ki, bütün iştirakçıları ilə görüşən Ukrayna Prezidenti Volodimir Zelenski idi. Sonuncular Qərb nümayəndələrindən fərqli olaraq münaqişənin diplomatik yolla həllinə çağırır. Rusiya Xarici İşlər Nazirliyi bildirib ki, Vladimir Zelenskinin G7 toplantısında iştirakı sammiti "təbliğat şousuna" çevirib.

ABŞ və Ukrayna prezidentləri arasında bazar günü "Grand Prince Hotel Hirosima" otelində keçirilən görüş, əsas aktyorları Co Bayden və Volodimir Zelensky olan üç günlük G7 sammitinin kulminasiya nöqtəsi olub. İki liderin danışıqlarından əvvəl onların televiziya kameraları qarşısında söhbəti CNN tərəfindən yayımlanıb. Nəticədə, söhbətin 20 dəqiqəlik videoyazısı Co Baydenin mətbuat konfransından əvvəl də ortaya çıxıb, bundan sonra o, bazar günü axşam Vaşinqtona uçub.

"Grand Prince Hotel Hiroshima"-dan olan videoda Co Bayden və Vladimir Zelenski Amerika və Ukrayna bayraqları fonunda gül dəstəsi ilə qəhvə masasında oturur və tərcüməçi olmadan ünsiyyət qururlar. İlk söz deyən Co Baydendir. O, dəqiqə yarım ərzində gözünü kağızdan çəkmədən ABŞ-ın Ukraynaya artıq göstərdiyi və etmək niyyətində olduğu yardımları sadalayır.

ABŞ prezidentinin sözlərinə görə, Vaşinqton Kiyevə 375 milyon dollar dəyərində daha bir hərbi yardım paketi verəcək, bu paketə sursat, artilleriya və zirehli maşınlar daxil olacaq və müttəfiqlərlə birlikdə F-16 qırıcılarını idarə etmək üçün ukraynalı pilotlara təlim keçəcək. Digər tərəfdən, dördüncü nəsil təyyarələrin veriləcəyi də gözlənilir.

Pentaqonun mətbuat xidmətinin bir gün əvvəl bildirdiyi kimi, ötən il fevralın 24-dən Ukraynada gedən münaqişə zamanı ABŞ-ın Ukraynaya hərbi yardımının ümumi məbləği artıq 35,7 milyard dollar təşkil edib. Buna cavab olaraq Volodimir Zelenski Co Baydenə Ukraynanı dəstəklədiyinə və Kiyevə "cəsarətli tarixi səfərinə" görə təşəkkür edib, həmçinin Ukraynanın Avro-Atlantik inteqrasiyası və NATO-nun Vilnüs sammitinə hazırlıq barədə danışıb.

"Dövlət başçısı ölkəmizin alyansa qoşulmasından əvvəl Ukrayna üçün təhlükəsizlik zəmanətlərinin alınmasının vacibliyini qeyd edib", - Ukrayna prezidentinin mətbuat xidməti bildirib. Bundan əvvəl Volodimir Zelenski alyansın iyulun 11-12-də keçiriləcək sammitində "Ukraynanın NATO-ya qəbulu ilə bağlı müsbət qərara" ümid etdiyini bildirib. Bununla belə, "Politico"nun məlumatına görə, Bayden administrasiyası Vilnüsdə keçiriləcək sammitdə Ukraynanın üzvlüklə bağlı yeni qərarlar qəbul edilmədiyi təqdirdə Kiyevə digər təhlükəsizlik təminatlarının verilməsi variantını müzakirə edir. Xüsusilə, NATO müqaviləsinin beşinci maddəsinə bənzətməklə, Kiyev və Vaşinqton arasında qarşılıqlı müdafiəyə dair ikitərəfli sazişin bağlanmasından danışmaq olar.

ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan, daha sonra isə Co Baydenin özü ilə danışıqlardan sonra Volodimir Zelenski yekun mətbuat konfransında Ukraynanın F-16 qırıcıları ilə təmin olunması mövzusunu ətraflı izah edib. Məsələ G7-nin Xirosima zirvədən əvvəl də ən çox müzakirə edilən dünya xəbəri idi. Ceyk Sallivanın aydınlaşdırdığı kimi, ABŞ yaxın gələcəkdə F-16-ların tədarükü imkanını nəzərdən keçirmir, çünki Kiyev "bu yay əks-hücum üçün lazım olan hər şeyi artıq alıb" - artilleriya, tanklar və zirehli texnika.

Eyni zamanda, Co Bayden vurğulayıb ki, Kiyevin dördüncü nəsil döyüşçülərə keçməsi dəqiq uzunmüddətli layihədir və elan edilmiş əks-hücumdan əvvəl Ukrayna Silahlı Qüvvələrinin dərhal gücləndirilməsinin zəruriliyindən söhbət getmir. "Mən indiki şəraitdə F-16-ların döyüş əməliyyatlarında iştirak edəcəyini gözləmirəm. Təsəvvür edin ki, hücum sabah və ya bir həftə, iki, beş, yeddi, on günə başlayacaq. Bu təyyarələrin bu müharibədə iştirak etməsi ehtimalı çox azdır. Lakin Ukrayna qısa müddətdə uğur qazanarsa, onlar aktivləşdiriləcək", - deyə Co Bayden izah edib.

G7 sammitinin yekun günündə növbəti qaynar xəbərə çevrilən Baxmutu (Artemovsk) Ukrayna tərəfinin itirməsi ətrafında yaranmış vəziyyətlə əlaqədar Co Bayden hesab edir ki, Baxmutdakı vəziyyətin Ukraynanın xeyirinə qısa zamanda dəyişməsinə F-16-lar kömək etməyəcək. Ceyk Sullivan və Co Baydenin gələcəkdə F-16-ların Kiyevə tədarükü məsələsi ilə bağlı açıqlamaları bir gün əvvəl Volodimir Zelenskinin G-7 sammitinin digər iştirakçıları ilə görüşləri zamanı fəal müzakirə olunan məsələyə "i" nöqtəsini qoydu. O zaman belə görünə bilər ki, Ukrayna tərəfinin "döyüşçülər koalisiyası" adlandırdığı qurumun yaradılmasına bir addım qalıb. Qeyd edək ki, Ukrayna prezidenti şənbə günü günortadan sonra Fransaya məxsus hökumət təyyarəsi ilə Səudiyyə Ərəbistanından Hiroşimaya uçub və bu təyyarəni onun xahişinə cavab olaraq Volodimir Zelenskini digər Qərb liderlərindən daha çox tanıyan prezident Makron ona təqdim edib. Parisin qərarını şərh edən Fransa mediası təyyarənin verilməsini "Ukraynaya güclü dəstək siqnalı" adlandırıb, həmçinin Emmanuel Makronun hələ prezident seçilməzdən əvvəl Yelisey sarayında Volodimir Zelenskini qonaq edən yeganə Qərb lideri olduğunu xatırladır.

### G7 ölkələri Rusiya və Çinə qarşı yeni iqtisadi müharibəyə hazırdır

Xirosimaya gələn Ukrayna prezidenti dərhal hamının diqqət mərkəzində olub. Şənbə günü bir neçə saat ərzində o, Böyük Britaniyanın baş naziri Rişi Sunak, Almaniya kansleri Olaf Şolz və prezident Frank-Valter Ştaynmayer, Avropa Şurasının rəhbəri Şarl Mişel, İtaliyanın baş naziri Corc Meloni və builki G7 sammitinin ev sahibi, Yaponiyanın baş naziri Fumio Kişida ilə görüşüb. Bundan əlavə, şənbə günü Kiyevin təşəbbüsü ilə Volodimir Zelenski G-7 toplantısına dəvət olunmuş Hindistanın baş naziri Narendra Modi ilə yarım saatlıq görüş keçirib.

"Yaponiyada mən Böyük Britaniyanın baş naziri Rişi Sunak ilə görüşdüm. Böyük Britaniyanın beynəlxalq döyüşçülər koalisiyasında liderliyinə görə təşəkkür etdim", - Volodimir Zelenski Böyük Britaniyanın baş naziri ilə Xirosimada söhbəti haqqında yazıb, onunla mayın 14-də Londonda keçirdiyi əvvəlki görüşünü xatırladıb. Bundan əvvəl o, Londonun Ukraynanın Kiyevi F-16 təyyarələri ilə təchiz etməyə hazır olan ölkələrin koalisiyasının yaradılması səylərini dəstəkləyəcəyini bildirmişdi. Bundan sonra "döyüşçülər koalisiyası" anlayışı dövriyyəyə buraxıldı.

Öz növbəsində Avropa Şurasının prezidenti Çarlz Mişel Zelenskini əmin edib ki, Kiyevə hərbi yardım "sursatların çatdırılması və döyüşçülərdən ibarət koalisiya yaradılması yolu ilə" gücləndiriləcək. "Aİ Rusiya iqtisadiyyatının hər bir sütununa zərbə vurmaq üçün G7 tərəfdaşları ilə işləyəcək", cənab Mişel söz verib.

G7 sammitinin şənbə günü qəbul edilən 40 səhifəlik yekun bəyanatında G7 Ukrayna münaqişəsində Rusiyaya qalib gəlmək üçün Ukraynaya uzunmüddətli hərbi və digər yardımlar göstərməyi öz məqsədləri adlandırıb. G7 həmçinin Moskvanı "döyüş əməliyyatlarını dayandırmağa" və "bütün qoşunlarını və silahlarını Ukraynanın beynəlxalq səviyyədə tanınmış bütün ərazisindən kənara çıxarmağa" çağırıb. Gələcək sülh danışıqlarına gəlincə, G7-nin bəyanatında onlar haqqında heç nə deyilmir. G7 liderləri yalnız mümkün sülh planı kimi yalnız "Zelenskinin təşəbbüslərini" tanıdıqlarını vurğulayıblar.

Bundan əlavə, G7 Rusiyaya sənaye avadanlığı və texnologiyalarının ixracına, eləcə də onun qlobal maliyyə sisteminə çıxışına məhdudiyyətlərin davam etdiyini elan edib. Xirosimada qəbul edilən bəyanatda qeyd edilir ki, G7 ölkələri Rusiyaya qarşı tətbiq edilən sanksiyaların digər dövlətlər tərəfindən yayındırılması ilə mübarizə üçün tədbirlər görəcəklər. "Əgər sülh danışıqları ilə bağlı təkliflər irəli sürülürsə, onların məqsədi dondurulmuş münaqişə əldə etmək ola bilməz. Rusiya qoşunlarını geri çəkməlidir", - Almaniya kansleri Olaf Şolz Qərb müttəfiqlərinin Koreya ssenarisi üzrə danışıqları və mümkün statuskvonun yaradılmasını rədd edərək güc tətbiqinə arxalanmaq əzmini izah edib.

Beləliklə, G7 sammiti nümayiş etdirdi ki, ən azı hazırda Qərb hərbi münaqişənin sülh yolu ilə həllini axtarmır. "Qlobal cənub" ölkələrinin əksəriyyəti fərqli mövqe tutur. Hindistanın baş naziri Narendra Modi Xirosimada Vladimir Zelenski ilə görüşdən sonra deyib: "Hindistan və mən münaqişənin həlli üçün mümkün olan hər şeyi edəcəyik".

Xirosimada baş tutan G7 sammitini Rusiya Xarici İşlər Nazirliyi şərh edib. "Rusiyaya "strateji məğlubiyyət" vermək niyyətlərini israrla nümayiş etdirərək G7 ölkələrinin liderləri Kiyevdə idarə etdikləri rejimin liderini görüşə gətirdilər və nəhayət, Xirosima hadisəsini təbliğat şousuna çevirdilər", - deyə Rusiya XİN-in departamentinin açıqlamasında deyilir. Bəli, G7 müharibəni necə dayandırmağı yox, Rusiyanı necə məğlub etməyin yollarını müzakirə edib.

***V.VƏLİYEV***

***P.S. Məqalədə G7 sammitinin materiallarından istifadə olunub.***






# Yeni Azərbaycan Partiyası Mərkəzçi Demokrat İnternasionalının tədbirlərində təmsil olunub

Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov Sloveniya Demokratik Partiyasının ev sahibliyi ilə Mərkəzçi Demokrat İnternasionalının (İDC-CDİ) 2023-cü il 17-20 may tarixlərində Sloveniya Respublikasının Bled şəhərində keçirilmiş tədbirlərində iştirak edib.

Mayın 18-də keçirilmiş İDC-CDİ İcra Komitəsinin iclasında qurumun fəaliyyətinə dair təşkilatın prezidenti Andres Pastrananın və baş katib Antonio Lopez-İsturizin hesabatları dinlənilib, təşkilati məsələlərə dair müzakirələr aparılıb.

Həmin gün keçirilmiş və Sloveniyanın Baş naziri Yanez Yanşa, Macarıstanın Baş naziri Viktor Orban, Xorvatiyanın Baş naziri Andrey Plenkoviç, parlament üzvləri və bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin də iştirak etdiyi Baş Assambleyanın iclasında Meksika, Madaqaskar, Nikaraqua, Kuba, Sloveniya, Livan və Kolumbiyadakı siyasi vəziyyətə, Ermənistanda demokratiya prinsiplərinin pozulmasına, Ukraynada davam edən müharibəyə, həmçinin qlobal sülh və təhlükəsizliyə dair qətnamə layihələri müzakirə olunaraq qəbul edilib.

Ermənistanın Respublikaçı Partiyasının nümayəndəsinin Baş Assambleya iştirakçılarında Laçın-Xankəndi yolundakı vəziyyətlə bağlı yanlış təsəvvür yaratmaq cəhdinin qarşısını qətiyyətlə alan YAP İdarə Heyətinin üzvü Ramin Məmmədov öz çıxışında ərazidəki gerçək vəziyyət, ekofəalların bir neçə ay davam etmiş aksiyasının mahiyyəti, Ermənistanın 30 illik işğal dövründə Azərbaycan torpaqlarındakı dağıdıcı fəaliyyəti, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin tənzimlənməsi və sülh prosesi ilə bağlı ölkəmizin irəli sürdüyü 5 prinsip, Ermənistanın bu prosesin irəliləməsinə yaratdığı maneələr və regiondakı ümumi durum haqqında geniş məlumat verib. Mayın 19-da İDC-CDİ-nin Dəyərlər və Sülh üzrə işçi qrupunun 1-ci sessiyasında yeni yaradılmış işçi qrupunun əhəmiyyəti vurğulanıb, fəaliyyət istiqamətləri müzakirə olunub.

Həmin gün "Sağ-mərkəzin ortaq qlobal çağırışları" mövzusunda gənclər seminarı və "Uğurlu sağ-mərkəz seçki kampaniyalarına dair strategiyalar" mövzusunda kampaniya menecerləri iclası keçirilib, sağ-mərkəzyönümlü siyasi partiyaların qlobal miqyasda nüfuzunun artırılması və seçkilər ərəfəsində effektiv təbliğat-təşviqat işlərinin qurulmasına dair məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb. Mayın 20-də Sloveniyanın paytaxtı Lyublyana şəhəri ilə tanışlıqdan sonra səfər başa çatıb.

# YAP- dünənin, bu günün və gələcəyin partiyası!

## YAP-ın Gəncə şəhər və Hacıqabul rayon təşkilatlarına yeni təyin olunmuş sədrlər ictimaiyyətə təqdim edilib










***Mayın 22-də Yeni Azərbaycan Partiyasının (YAP) Gəncə şəhər və Hacıqabul rayon təşkilatlarına yeni təyin olunmuş sədrlər ictimaiyyətə təqdim edilib. Gəncə şəhərində keçirilən tədbirdən öncə iştirakçılar Ulu Öndər Heydər Əliyevin şəhərin Baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə tər güllər düzüb, xatirəsinə dərin ehtiram ifadə ediblər.***

Tədbirdə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Milli Məclisin deputatı Müşfiq Cəfərov, partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək Yeni Azərbaycan Partiyasının zəngin və şərəfli inkişaf yoluna nəzər salıb. N.Bayramov bildirib ki, Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi, xalqın daim dəstəklədiyi Yeni Azərbaycan Partiyası qüdrətli Azərbaycan naminə tarixi missiyanı "Biz birlikdə güclüyük!" çağırışı ilə şərəflə yerinə yetirir.

YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev Azərbaycanın tərəqqisinə layiqli töhfələr verən Yeni Azərbaycan Partiyasının qazandığı nailiyyətlərdən ətraflı bəhs edib. Əhliman Tağıyev qeyd edib ki, Heydər Əliyev ideyaları əsasında öz fəaliyyətini uğurla davam etdirən YAP ölkəmizin və regionun ən böyük siyasi partiyası kimi aparıcı rola malikdir. O bildirib ki, partiyanın yeni Proqramı müasir dövrün çağırışlarını nəzərə almaqla özündə mütərəqqi dəyərləri, prinsipləri, hədəfləri və vəzifələri ehtiva edir.

Sonra partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov şəhər ictimaiyyətinə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib. YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov çıxış edərək ona göstərilən etimada görə təşəkkürünü bildirib, öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağını bildirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Milli Məclisin deputatı Müşfiq Cəfərov, AMEA-nın Gəncə bölməsinin akademik katibi, akademik Fuad Əliyev, Gəncə şəhər Ağsaqqallar Şurasının sədri Nurəddin Məmmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizə möhtəşəm uğurlar qazandırdığını diqqətə çatdırıblar. Onlar YAP Gəncə şəhər təşkilatının sədrini təbrik edərək məsuliyyətli və şərəfli işində uğurlar arzulayıblar.

Hacıqabulda keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları Ümummilli Liderin rayon mərkəzində yerləşən abidəsini ziyarət edib, önünə tər güllər düzərək xatirəsini dərin ehtiramla yad ediblər.

Tədbirdə Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov, YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov, partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Hacıqabul rayon İcra Hakimiyyətinin başçısı Rüstəm Xəlilov bildirib ki, Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası Azərbaycan siyasi sisteminə mühüm yeniliklər gətirmiş və bir çox uğurlara imza atmışdır. O, YAP-ın Azərbaycan xalqının böyük inam və etimadını qazandığını, ümumxalq və qələbələr partiyasına çevrildiyini söyləyib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov bildirib ki, müstəqillik dövrünün ən möhtəşəm hadisələri və tarixi nailiyyətlərimiz Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin adı ilə bağlıdır. Millət vəkili vurğulayıb ki, YAP Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçib, tarixi uğurlara imza atıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov partiyanın VII qurultayından ötən müddət ərzində həyata keçirilən işlərin əhəmiyyətindən bəhs edib.

Sonra partiyanın Hacıqabul rayon təşkilatının sədri İsmayıl İbrahimov ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

YAP Hacıqabul rayon təşkilatının sədri İsmayıl İbrahimov çıxış edərək təşəkkürünü bildirib, göstərilən etimadı layiqincə doğrultmağa çalışacağını vurğulayıb. Daha sonra çıxış edən Hacıqabul rayon Ağsaqqallar Şurasının sədri Sahib Aslanov Yeni Azərbaycan Partiyasının tarixi nailiyyətlərimizdə xüsusi imzasının olduğunu deyib.

# "Sülh müqaviləsi imzalanmasa Rusiya Ermənistana silah satmayacaq"

## "Moskvada sülh razılaşmasının ilkin variantı üzərində razılığa gəlinib, mayın sonunda müqavilə bağlana bilər"

***Rusiyalı politoloq, konfliktologiya üzrə beynəlxalq ekspert Dmitri Verxoturov "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistan-Azərbaycan nizamlanması prosesinin gedişi və Ermənistanın Rusiyadan silah tələbinə Moskvanın yox deməsi haqda fikirlərini bildirib. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.***

***- Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilən üçtərəfli görüşünün nəticələrini, xüsusən də, Rusiya xarici işlər naziri Sergey Lavrovun tərəflərin sülh müqaviləsinə dair ümumi baxışa yaxınlaşa bildiyi barədə bəyanatını necə qiymətləndirərdiniz?***

- Fikrimcə, müzakirə olunan sənədin adına baxsaq, bu üçtərəfli görüşdə açıq-aşkar nəsə baş verdi və bəlkə də, hətta ciddi irəliləyiş də əldə olundu. Hesab edirəm ki, tərəflər Bakı ilə İrəvan arasında tam hüquqlu sülh müqaviləsinin ilkin variantı üzərində razılığa gəliblər.

***- Yəni, Azərbaycan və Ermənistan liderlərinin mayın 25-də eyni yerdə, Moskvada keçirilməsi nəzərdə tutulan görüşündə artıq sülh sənədinin ilkin variantı müzakirə olunacaq?***





-Məncə hə. Güman edirəm ki, sülh müqaviləsinin variantı xarici işlər nazirlərinin dünənki üçtərəfli görüşündə artıq nəzərdən keçirilib və görünür, ayın sonunda Azərbaycan, Ermənistan və Rusiya liderlərinin qarşıdan gələn görüşündə də ətraflı nəzərdən keçiriləcək. Ona görə də, təbii ki, tərəflərin sənədə hər hansı etirazı olmasa, qarşıdakı görüşün nəticəsində sülh sazişinin imzalana biləcəyi ehtimalı böyükdür. Sülh müqaviləsinin mümkün qədər tez bağlanması zərurətini nəzərə alsaq, müqaviləni yalnız qısa müddətə təxirə salmaq olar.

***- Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması üçün Brüssel və Vaşinqtonun köməyini səmərəli hesab edirsinizmi?***

- Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsi üçün nəzərdə tutulan Avropa və Amerika platformalarına gəlincə, hesab edirəm ki, Qərb diplomatiyası bu məsələni həll edə bilməz və müvafiq olaraq onun effektivliyi çox aşağıdır.

***- KTMT missiyası hansı şərtlərlə şərti olaraq Ermənistan-Azərbaycan sərhədində yerləşdirilə bilər?***

- Düşünürəm ki, KTMT missiyası Bakı ilə İrəvan arasında sülh sazişi imzalanandan dərhal sonra Ermənistan-Azərbaycan sərhədi boyu yerləşə bilər.

***- Rusiyanın Ermənistana hərbi təchizatının bərpası nə dərəcədə mümkündür?***

- Hesab edirəm ki, bütün hərbi məsələlərin, o cümlədən silah-sursatla təminat məsələsinin həlli yalnız Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra mümkündür. Ola bilsin ki, sənədə məsələnin hərbi tərəfini müəyyən edən bəndlər daxil olsun və beləliklə, bütün tərəflərin razılığı əsasında bütün məsələlər həll oluna bilər. İndiki şəraitdə mənə ən məntiqli bu görünür, çünki sülh müqaviləsi imzalanmamışdan əvvəl Ermənistana silah tədarükünün bərpası Azərbaycanı qəzəbləndirə və müvafiq olaraq danışıqlar prosesini poza bilər. Amma düşünürəm ki, Rusiya diplomatiyası belə elementar səhvlərə yol verməyəcək.

***- Azərbaycanla Ermənistan arasında yeni hərbi toqquşmalara icazə verirsinizmi?***

- Bəzi kiçik atışmalar ola bilər, lakin genişmiqyaslı müharibə və sərhədlərin yenidən bölüşdürülməsi ehtimalı azdır. Üstəlik, bu, Rusiya və digər region ölkələri üçün sərfəli deyil.

***Tərcümə - Elçin Bayramlı***





# Prezident seçkiləri: Qalib türk dünyası olacaq

Bu gün gərgin və qarışıq dünya gündəmində əsas diqqətlərin Türkiyədə keçirilməsi nəzərdə tutulan 28 may prezident seçkilərinə yönəlib. 14 may seçkilərində qalibi müəyyənləşdirmək mümkün olmasa da, görünən ondan ibarətdir ki, Türkiyə dövləti özlərini azad, demokratik dövlət kimi təqdim edən ölkələrə demokratiya dərsi keçdi. Bir daha aydın oldu ki, Türkiyə dövləti və ona rəhbərlik edən hakimiyyət komandası üçün əsas məqsəd və hədəf xalqın seçimidir. Xalq isə 14 may seçkilərində seçki məntəqələrinə gedərək azad şəkildə öz iradələrini ifadə etdilər. Türkiyədə mayın 14-də keçirilən prezident və parlament seçkilərində, ümumilikdə, 60 milyona yaxın insan iştirak edib. Seçkilərdə Türkiyə prezidenti, Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəhbəri Rəcəb Tayyib Ərdoğan 49,50%, Cümhuriyyət Xalq Partiyası (CHP) namizədi Kamal Kılıçdaroğlu 44,89 %, Ata İttifaqı namizədi Sinan Oğan 5,17%, Memleket Partiyasının namizədi Muharrem İncə isə 0,44% səs toplayıblar. Prezident seçkilərində heç bir namizəd 50 %-dən çox səs toplamadığı üçün seçilmək hüququ qazanmayıb və 28 may tarixində Türkiyədə prezident seçkilərinin ikinci turu keçiriləcək.





### Demokratik seçki ənənəsinə sadiqlik

Prezident seçkilərində qalibi müəyyənləşdirmək mümkün olmasa da, Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi Ədalət və İnkişaf partiyası parlamentdə çoxluğa sahib ola bilib. Siyasi ekspertlərində gəlikləri qənaətə görə, parlamentdə çoxluğa sahib olan partiyanın sahibi 28 may seçkilərinin qalibi olacaq. Deməli, 28 may seçkilərində Rəcəb Tayyib Ərdoğan xalqın səsini qazanaraq ölkənin 13-cü prezidenti olaraq fəaliyyətini davam etdirəcək.

Hazırkı ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentə qazanılan qələbənin 28 may seçkiləri üçün önəmli qələbə olduğunu bildirib: "Türkiyədə 28 may tarixində keçiriləcək prezident seçkilərinin ikinci turunda millətimizin iradəsi və dəstəyi sayəsində rekord göstərici ilə qalib gələcəyik. Millətimiz 14 may tarixində 323 millət vəkili ilə parlamentdə çoxluğu Cümhur İttifaqına verərək, əslində, öz iradəsini nümayiş etdirdi. Prezidentlikdə isə 49,5 faiz səslə 27 milyondan çox vətəndaşımız bizə üstünlük verdi".

Qeyd etmək lazımdır ki, seçkilər Türkiyənin 100 illiyində keçirilir. Bu isə xüsusi anlam daşıyır. Deməli, 14 may seçkilərində olduğu kimi, 18 may seçkilərinin də cox gərgin mübarizə şəraitində keçəcəyini göstərir. Lakin bütün cəhdlərə və bir-birində fərqli mübarizə üsullarına baxmayaraq, sonda qalib tərəf R.T.Ərdoğan olacaq. Çünki R.T.Ərdoğanın Türkiyə xalqı ilə yanaşı, dünyada da böyük hörmətə və rəğbətə malikdir. Xüsusilə də, Azərbaycanda hər kəs sayın Ərdoğana böyük hörmət bəsləyir. Türkiyədəki prezident seçkilərinin ikinci turu üçün Azərbaycanda səsvermə 20-22 may tarixlərində keçirilir. Səsvermə prosesi Bakıdakı səfirlik, Gəncə və Naxçıvandakı Baş konsulluqların binalarında təşkil edilib. Seçkilərinin ikinci turu üçün səfirlikdə səsvermə prosesinin başladığı 20 may tarixində 4, mayın 21-də 4, mayın 22-də isə 1 qutu qurulacaq. Ölkəmizdə minlərlə Türkiyə vətəndaşının yaşadığını nəzərə alsaq, seçkilərdə yüksək seçici fəallığı olacağını demək olar. Verilən məlumatlara görə, hazırda Türkiyənin xarici nümayəndəliklərində və gömrük qapılarında prezident seçkilərinin ikinci turu üçün səsvermə davam edir. Ali Seçki Komissiyasının məlumata görə, xarici nümayəndəlik və gömrük qapılarında ümumilikdə 1 milyon 38 min seçici səs verib: "Nümayəndəliklərdə səsvermə mayın 24-də başa çatacaq, gömrükdə isə mayın 28-i saat 17.00-dək davam edəcək. Xarici nümayəndəliklərdə səsvermə həftə içi və istirahət günləri yerli vaxtla saat 09.00-dan 21.00-dək, baş konsulluğa tabe olan şəhərlərdə isə yerli vaxtla saat 09.00-dan 18.00-a qədər aparıla bilər. Gömrük qapılarında 24 saat səs verə bilərsiniz".

Avropanın əksər bölgələrində olduğu kimi, Almaniyada da yaşayan türklərin məntəqlərə gedərək müəyyənləşdirdikləri namizədlərə səs verilməsi yüksək seçici fəallığı ilə müşahidə olunub. Ən çox türk seçicinin Almaniyada olduğu Şimali Reyn-Vestfaliya əyalətinin Köln, Essen, Düsseldorf və Münster şəhərlərindəki baş konsulluqlarda səslər rekord fəallıqla verilib. Essen şəhərindəki Baş Konsulluq binasında səs vermək istəyən vətəndaşlar uzun növbə yaradıblar. Xaricdəki Türklər və Qohum Topluluqlar (YTB) sədri Abdullah Eren Essen Baş Konsulluğu Seçki Mərkəzində olub. YTB Başçısı Eren, vətəndaşların seçki qutusuna olan sıx marağından məmnun olduqlarını ifadə edərək, "Dünyada belə bir təşkilatı təşkil edən ikinci bir ölkə yoxdur" deyib. "Türkiyənin xaricdəki səsvermə təşkilatının böyüklüyünə"diqqət çəkib və çağırış edərək qeyd edib ki, bütün vətəndaşlarımızı siyasi baxışlarından asılı olmayaraq demokratiyanı qorumağa və demokratiya ziyafətinə çağırıram: "Dünyanın heç bir ölkəsi xaricdə 73 ölkədəki 167 səsvermə mərkəzində vətəndaşlarının ayağına belə qutular gətirmir. Çox böyük səsvermə var. Burada xarici işlər nazirliyimizə, səfirliyimizə və baş konsulluğumuza təşəkkür edirik". Baş konsul Taylan Özgür Aydın: Seçki dairəmizdə seçici fəallığı ikiqat artıb. Türkiyənin Essendəki baş konsulu Taylan Özgür Aydın seçkilərdə iştirakın rekord həddə çatdığını vurğulayaraq, aşağıdakı ifadələrdən istifadə edib: "Avropada artan marağın olduğunu görürük. Birinci turla müqayisədə Essen Baş Konsulluğunun vəzifə bölgəsi baxımından gündəlik səsvermələrdə iki dəfədən çox iştirak var. Biz seçki qutularının sayını 33-ə çatdırdıq. Bu gün. Vətəndaşlarımızdan böyük maraq gördük. Dövlətimizin icazəsi və töhfəsi ilə qutuların sayını artırdıq. Bunun müqabilində vətəndaşlarımız da öz rəğbətini göstərərək səs verməyə gəldilər".

### Dövlət Baxçalı: "Amerikanın uşaqları Hansın, Almaniyanın uşaqları Toninin, Koninin, Frankın, Henrinindir"

Türkiyə cəmiyyətində ayrı-ayrı partiyalar və ictimai təşkilatlarda R.T.Ərdoğanın namizədliyini müdafiə edirlər. Dövlət Baxçalı qeyd edib ki, qanunvericilikdə uğur əldə olunarsa, icra hakimiyyəti də uğur qazanacaq: "İcrada uğur Prezident Hökumət Sistemini qoruyub saxlamaq və prezident Rəcəb Tayyib Ərdoğanı 13-cü prezident etməkdir. Bu səbəbdən mayın 28-də keçiriləcək seçkilər təkcə Prezidentin seçilməsini deyil, sabitlik, istiqlal və gələcək dediyimiz 3-cü partiyanı da təmin edəcək: "Millət olaraq dəyər anlayışını mənimsəyərək türk millətini yeni əsrə gətirə biləcək uğuru təmin etməkdir. D.Baxçalı bəzi beynəlxalq nəşrləri də tənqid edərək bunları deyib: "Bütün dünyaya səslənirəm və deyirəm ki, Amerikanın uşaqları Hansın, Almaniyanın uşaqları Toninin, Koninin, Frankın, Henrinindir. Birdən sizin alayına müraciət edirəm, nə yazırsan, nə deyirsən deyirsən, Türkiyədə kimlə əməkdaşlıq edirsən olursa-olsun. Anadolunun igidini Rəcəb Tayyib Ərdoğanı əzməyəcəyik. Avropanın bəzi ölkələrində özlərini türk əsilli kimi göstərərək Almaniya və Belçikaya xidmət edən əclaflara millətin bir cavabı olsun. "Bizimlə olan Rəcəb Tayyib Ərdoğan Namizəd olaraq könüllərin duruşunu, çağırışını eşitmək və göstərə bilmək üçün daha çox şey etməmiz lazımdır. Adanada keçmişdən bəri istifadə olunan bir şey var. Bunu öz aralarında danışarkən müəyyən anlayışlarla güclərini, cəsarətlərini göstərmək üçün deyirlər. 1-ci, quruda üzmək. 2-ci, havada üzmək. Üçüncüsü, dənizdə üzmək. İndi Hataydan zəng edirəm. 28 mayda Hatayda üzmək. O zaman hər hataylı yüzilliyi 100 səslə qarşılayacaq və 100-ü tapmağa çalışacaqmı? Bunu bacaracaqsan?".

DEVA Partiyasının sözçüsü İdris Şahin Artı TV-də siyasi gündəmlə bağlı açıqlamalar verib. İdris Şahin bildirib ki, mənim gördüyüm müxalifətin ocağı yanmış kimi bir vəziyyətdir: "Çox aydın deyil, bizdə də olub. Son apardığımız sorğuların heç birində Kamal bəyin ipi çəkməsi ilə bağlı bir nəticə yox idi. CHP-li dostlarımız da bunu bilirlər və Millət Alyansının bütün tərkib hissələrinin qarşısında anketlər var idi. Son bir həftədə, xüsusilə, hava şəraiti səbəbiylə mitinqlər və dəyişmə iradəsi bazara getdiyinizdə çox əks olundu. Bu müsbət ab-havadan təsirlənərək elə bir təsəvvür alındı ki, sanki bu iş birinci turda bitəcək. Bu, son dərəcə yanlış idi. Bu, konkret məlumatlarla ikinci tura gedən seçki idi. Mən CHP-nin Baş Qərargahında idim və saat səkkizə qədər nəticələr az-çox bəlli idi".

Bir sözlə, aparılan araşdırmalar və təhlillər onu deməyə əsas verir ki, prezident seçkiləri tarixinin ən gərgin seçkisi kimi xarakterizə olunmaqdadır. Cəmiyyətin fəallığı, insanların kütləvi şəkildə seçki ilə bağlı fikirlərini, rəylərini bildirmələri və nəhayət, seçki məntəqələrinə gedərək səsvermədə iştirak etmələri xalqın öz taleyinə biganə qalmadığını göstərir. Namizədlərin və ya partiyaların, təşkilatların, nəhayət, fərdlərin hansı mövqe sərgiləmələrindən asılı olmayaraq bütün hallarda qalib türk xalqı, türk dünyası olacaq.

**İ.ƏLİYEV**

# Brüssel görüşü:

## Yenə də Bakı diktə, İrəvan isə qəbul edir

**Bu, Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik xarici siyasətinin növbəti uğurudur**



Mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşünün nəticələri Azərbaycanın növbəti diplomatik uğurudur. Çünki Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan 1991-ci il ”Alma-ata bəyannaməsi”nə sadiq olduqlarını bildirmiş, sərhədlərin delimitasiya və demarkasiya prosesinə başlanması razılaşdırılmışdır. Azərbaycanın 86,6 min km, Ermənistanın 29,8 min km ərazisi qarşılıqlı şəkildə tanınmışdır. Beləliklə, erməni baş nazirin beynəlxalq platformada Azərbaycanın ərazi bütövlüyünü tanıması Ermənistanın Qarabağla bağlı iddialarının üstündən birdəfəlik xətt çəkmiş oldu;

Şarl Mişelin ”keçmiş Dağlıq Qarabağ Vilayəti” ifadəsini işlətməsi Ermənistanın manipulyasiyasının əsassız və faydasız olduğunu təsdiqləmiş, Qarabağın Azərbaycanın suveren ərazisi və daxili işi olduğunu sübuta yetirmişdir.

Qeyd edək ki, danışıqlar Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif əsasında aparılır. Burada əsas məqam Azərbaycanın ərazi bütövlüyüdür. Rəsmi Bakının İrəvana təqdim etdiyi təkliflər aşağıdakılardır: Dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; Dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; Dövlətlərarası münasibətlərdə bir-birilərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək; Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

### AZƏRBAYCANIN TƏŞƏBBÜSLƏRİ AVROPA İTTİFAQI SƏVİYYƏSİNDƏ DƏSTƏKLƏNİR

Əvvəlki Brüssel görüşlərində olduğu kimi, Prezident İlham Əliyev beşinci Brüssel görüşündə də Azərbaycan həqiqətlərini xarici ölkə siyasətçilərinin, eyni zamanda beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmış oldu. Artıq Azərbaycan öz ərazi bötövlüyü və suverenliyini təmin edib. Ölkə başçısı münaqişə bitdikdən sonra dəfələrlə açıq bəyan edib ki, Azərbaycan səhifəni çevirməyə hazırdır. Yəni ölkəmiz regionda sülh, təhlükəsizlik və mehriban qonşuluğun tərəfdarıdır. Hərbi əməliyyatlar bitdikdən dərhal sonra azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə start verilməsi, eyni zamanda regionda nəqliyyat və kommunikasiya xətlərinin açılması üçün atılan addımlar Azərbaycanın davamlı sülhdə maraqlı olmasından xəbər verir.

Görüşdən sonra Şarl Mişelin üçtərəfli görüşün nəticələri ilə bağlı yekun bəyanatla çıxış etdi və bu bəyanatında diqqətçəkən önəmli məqamlardan biri də Ermənistanın Qarabağ da daxil olmaqla, Azərbaycanın ən azı 86,6 min kvadratkilometr ərazisini rəsmən və açıq şəkildə tanıdığını bəyan etdiyinin vurğulanmasıdır. Həmçinin, Şarl Mişelin bəyanatında Laçın yolu ilə bağlı da heç bir ifadə yer almayıb və bu amil Azərbaycanın öz suveren ərazilərində tətbiq etdiyi hüquqi prosedurlar nəticəsində yaranan reallıqların beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunduğunu göstərir.

Şarl Mişelin bəyanatında nəzərəçarpan digər məqam Azərbaycanın erməni əsilli sakinləri ilə bağlı əsasən Avropa İttifaqının baxış bucağını əks etdirən yanaşmadır. Şarl Mişelin bəyanatında Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi barədə qeydlər və Bakının onlarla açıq dialoq aparmasına dair fikirlər göstərir ki, artıq Qarabağdakı etnik ermənilər Azərbaycan vətəndaşları kimi qəbul olunur. Müzakirələrdə Qarabağ ermənilərinə hansısa statusdan, hətta beynəlxalq mexanizmlərdən belə söhbət gedilmir. Digər mühüm məqam ondan ibarətdir ki, Avropa Birliyi Cənubi Qafqazda sülhün bərqərar olunmasının özünü geostrateji prioritetləri sırasına daxil etdiyini bəyan edib. Və Avropa İttifaqının danışıqlarda vasitəçiliyini davam etdirməsi Azərbaycanın bölgədəki siyasi maraqlarına uyğundur. Bu mənada Brüssel prosesinin davamında uğurlu yekun sülh sazişinin imzalanacağına ümid etmək olar.

Son görüş təsdiq etdi ki, Azərbaycan pozucu mövqe tutan, sülhə gedən yolu əngəlləməyə çalışan Fransanı masa arxasına buraxmadı, rəsmi Paris prosesi elə öz ölkəsindən izləməli oldu və niyyəti gözündə qaldı. Və Fransa bir daha anlamalıdır ki, Azərbaycan regionun Lideridir, Qalib ölkədir və Qalib ölkənin Qalib Lideri Prezident İlham Əliyev aparılan danışıqlarda əsas söz sahibidir.

Bir sözlə, 2023-cü il mayın 14-də baş tutmuş beşinci Brüssel görüşü Azərbaycanın növbəti diplomatik uğuru kimi tarixə düşdü. Məhz, hazırda Ermənistanda gedən proseslər və erməni cəmiyyətində hökm sürən əhval-ruhiyyə də onu göstərir ki, Azərbaycan Prezidentinin siyasi-diplomatik səyləri böyük səmərə verir və Ermənistanın müxtəlif iddialarla prosesi ləngitmək cəhdləri isə iflasa uğrayır.

**RƏFİQƏ HÜSEYNOVA**



## “Narkotiklərə yox de, bizimlə birlikdə ol!”

*Velosiped idman növü üzrə yürüş keçirilib*

**Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, ”Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün Tədbirlər Planına uyğun olaraq YAP Sumqayıt şəhər təşkilatının və ”Gənc velosipedçilər” İctimai Birliyinin birgə təşkilatçılığı ilə ”Narkotiklərə yox de, bizimlə birlikdə ol!” devizi altında velosiped idman növü üzrə yürüş keçirilib.**





Yürüşün keçirilməsində məqsəd narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi və gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaqdır.

Tədbirdə YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva, Sumqayıt şəhər İcra Hakimiyyəti başçısının müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Sumqayıt şəhər komissiyasının sədri Teymur Səmədov, Milli Məclisin deputatı Müşfiq Məmmədli, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərinin müavini Tanrıverdi Aydınov, İkiqat Paralimpiya Oyunları çempionu, üçqat dünya çempionu, səkkizqat Avropa çempionu, Azərbaycanın Əməkdar idman ustası, Əməkdar məşqçi, 7-ci dan sahibi, Qarabağ müharibəsi qazisi İlham Zəkiyev, ”Gənc velosepedçilər” İctimai Birliyinin sədri Nur Axundova və digərləri çıxış edərək narkomaniya ilə mübarizənin daim diqqət mərkəzində olduğunu söyləyiblər. Qeyd olunub ki, bu tədbirin də əsas hədəfi bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, təhlükə mənbəyinə çevrilən narkomaniyaya qarşı mübarizə ilə bağlı təbliğat işinin daha da gücləndirilməsi, sağlam gələcəyimiz naminə yeniyetmə və gənclər arasında aparılan maarifləndirmə işlərinin davamlılığını təmin etməkdir.

”Narkotiklərə yox de, bizimlə birlikdə ol!” velosiped idman növü üzrə keçirilən yürüşdə ”Baku Riders”, ”Only Moto”, ”Baku trek”, ”Sumqayıt” velo klublarının üzvləri, gənclər və Sumqayıt şəhər Baş Polis İdarəsinin əməkdaşları iştirak ediblər. Sonda yürüş iştirakçılarına fəxri fərmanlarla yanaşı, sertifikatlar və ”D'olivo” italyan restoranının, ”Hello” İxtisaslaşdırma və İnkişaf Mərkəzinin hədiyyələri təqdim edilib.

# Heydər Əliyev-100

Mövcud reallıqlar təsdiq edir ki, xalqımız müxtəlif dövrlərdə çətin sınaqlarla üz-üzə qalmış, lakin bu sınaqladan xalqın birliyi nəticəsində şərəflə çıxa bilmişdi. Ötən əsrin 90-cı illərin əvvəlində yaşanan faciəvi dövr Azərbaycan xalqının tarixən üzləşdi ən ağır dövr olmuşdur. Həmin kəşməkeşli dövrdə xalqın sabaha olan ümidi tammilə sarsılmış, yenicə qazandığı dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. AXC-Müsavat iqtidarı isə ölkədiki xaos və anarxiyanı aradan qaldırmağa cəhd etmirdi. Daha doğrusu səriştəsiz siyasətləri səbəbindən yaranan ağır, böhranlı durumu aradan qaldırmaq imkanında deyildilər. Haqlarının tapdanmasına, hüquqlarının pozulmasına, dövlətçiliyin itirilməsi təhlükəsi ilə barışa bilməyən əhali küçələrə çıxıb etiraz aksiyası keçirərkən AXC-Müsavat iqtidarı əhalinin üzərinə hücüm edir, insanları döyür, həbsxanalara atırdılar. Bu da xalqla hakimiyyət arasında həlli mümkün olmayan uçurum yaratmışdır. Böhranlı vəziyyətdən sui-istifadə edən erməni terrorçu qüvvələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdi. Belə bir ağır şəraitdə xalq üzünü Ulu Öndər Heydər Əliyevə tutdu. Azərbaycan xalqı başa düşürdü ki, ölkəni bu çətin vəziyyətdən yalnız Heydər Əliyev kimi bacarıqlı, uzaqgörən lider çıxara bilər. 1992-ci il oktyabr ayının 16-da 91 nəfər ziyalının ünvanladığı müraciətdə Dahi Öndərdən yeni bir siyasi partiyanın yaradılması və ona rəhbərlik etməsi xahiş olundu.



*İqbal Məmmədov,*
*Milli Məclisin deputatı*

1992-ci il oktyabrın 24-də cavab məktubunda Ümummilli Liderimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək müraciəti qəbul etdi və Yeni Azərbaycan Partiyasının yaradılmasına, onun Sədri olmağa razılıq verdi. Beləliklə 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Konfransda Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bununla da ölkəmizin həyatında yeni və sürətli inkşaf dövrünün əsası qoyuldu.Yeni Azərbaycan Partiyası yarandığı zamanda müxalifət partiyası olmasına baxmayarq böyük siyasətçi Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında xalqın sevgisini, inamını qazanaraq qısa müddət ərzində iqtidar partiyasına çevrildi.

1993-cü ilin iyunun 9-da xalqın tələbi ilə Dahi Öndər Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. İyunun 15-də isə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi. Bütün çətinliklərə baxmayaraq Ulu Öndər xalqın qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü.Qısa müddətdə ölkədə sabitlik təmin olundu, yeni iş yerləri yaradıldı, hüquqi, demokratik dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı, insan hüquq və azadlıqlarının təmin olunması məqsədilə Fərman və Sərəncamlar verildi, qanunlar qəbul olundu. Bu baxımdan haqlı olaraq 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu və 1997-ci ildən rəsmi bayram kimi qeyd edilməyə başlandı.



## Tarixi yaradan və yaşadan BÖYÜK AZƏRBAYCANLI!

### Xalqa bəxş edilən şərəfli ÖMÜR

Dahi Öndərimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdarkən demişdir: "Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir". Ulu Öndər Azərbaycan xalqının lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzmlə yerinə yetirdi, xalqı və dövləti yürütdüyü müdirik siyasətlə bütün bəlalardan xilas etdi, Azərbaycanı dünyanın inkişaf edən, nufuzlu dövlətləri sırasına çıxartdı.

Əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılamsı üçün 20 sentyabr 1994-cü ildə Bakı şəhərində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə ixtisaslaşmış, yüksək nüfuza malik dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu tarixi sənədin imzalanması ilə Azərbaycanın neft strategiyası uğurla həyata keçirilməyə başlandı. Müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. Ölkəmizin iqisadi inkişafında və əhalinin sosial rifah halının yaxşılaşmasında mühüm rol aynayan "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdır. Bunun da 60 faizdən çoxu xarici kapitalın payına düşür. 1996-2001-ci illərdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin sayı 717-dən 1974-ə, müəssisələrdə çalışanların sayı isə təxminən 15 min nəfərdən 25 min nəfərə çatmışdır. Göstərilən müddətdə, eyni zamanda, xarici investisiyalı müəssisələrin ödədiyi vergilərin payı, cəmi vergi daxilolmalarında 9,3 faizdən 19,7 faizə yüksəlmişdir. Ümumilikdə isə, 1996-2001-ci illərdə həmin müəssisələr vergi və sosial ayırma şəklində büdcəyə təqribən 600 milyon dollar, sosial fondlara isə 400 milyon dollara yaxın vəsait ödəmişlər.

Neftin ixracında Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və həyata keçirilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri xüsusi rol oynamışdır. Bu baxımdan şirkət rəhbərləri 2004-cü ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Uğurlu neft strategiyası sonrakı illərdə Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihəsinin həyata keçirilməsi ilə davam etdirildi.

### Azərbaycanın inkişafında yeni mərhələ

2003-cü ildən Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti Onun ən layiqli siyasi varisi, Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirməkdədir. 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyev xalqa müraciət ilə əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü il prezident seçkilərində xalq Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsinə səs verdi. Dahi Öndərimizi ən layiqli siyasi varisi Cənab İlham Əliyev xalqın 76,84 faiz səsini qazanaraq ölkə Prezidenti seçildi. Prezident İlham Əliyev andiçmə mərasimində demişdir: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanıb. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azəçrbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

Son 20 il də Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib.Cari ilin yanvar ayının 1-dən bütün növ sosial ödənişlər, təqaüdlər, minimum əməkhaqları 30 faizədək artırılıb. Şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə alınğı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib.Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ölkəmizin bir çox yerlərində 100 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.Beynəlxalq əlaqələrə xüsusi önəm verən Azərbaycan əksər ölkələrlə ikitərəfli əməkdaşlıq əlaqələri qurmağa nail olub. Bunun nəticəsidi ki, Azərbaycanı sevən, dərin hörmət və rəğbət bəsləyən dövlətlərin səsverməsi ilə Azərbaycan daha üç il müddətinə Qoşulmama Hərəkatına sədrlik edir. Quruma sədrlik etməsi ilə təşkilatın dünyada nüfuzu daha da artıb, mövqeləri möhkəmlənib.

2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daim üzv seçilməsi ölkəmizin dünyada yerinin və rolunun yüksək olduğunun göstəricisidir. Bunla yanaşı Azərbaycan bir sıra Avropa və beynəlxalq miqyaslı idman yarışlarına, konfranslara, tədbirlərə də ev sahibliyi edir. Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci il "İslam Həmrəyliyi ili" elan olunub.

### Vətən müharibəsində qazanılmış qələbə

Təbii ki, ölkə Prezidnti İlham Əliyevin xalq, dövlət maraqlarına əsaslanan xeyirli, gərəkli fəaliyyətinin əsas məğzini 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın düşmən əsarətindən azad edilməsi və bununlada Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsidir. 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. 2023-cü ilin aprelin 23 -də isə Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd- keçid məntəqəsi quruldu. Bunlada suverenliyimiz təmin olundu. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliev bir daha



Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işağldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir.

### Xalqın inam və etimad göstərdiyi tək ünvan Yeni Azərbaycan Partiyasıdır

Söz yox ki, əldə olunan uğurlarda Yeni Azərbaycan Patiyasının da böyük payı var. Çünki yarandığı gündən Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi bütün bacarığını dövlətə, xalqa xidmətə yönəldərək Azərbaycanın qazandığı davamlı uğurlara öz layiqli töhfəsini verib. Yeni Azərbaycan Partiyası bu zamana qədər qatıldığı bütün seçkilərdə qələbə qazanıb. Qazanılan qələbələr onu bir daha təsdiqləyir ki, xalqın inam və etimad göstərdiyi tək ünvan Yeni Azərbaycan Partiyasıdır. 2021-ci ilin mart ayında keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayı təşkilatın fəaliyyətində və qarşıya qoyduğu vəzifələrin icrasında mühüm rol oynadı.




Hazırda Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası ölkəmizin ən güclü siyasi qüvvəsi statusunu daşıyır. YAP-ın sıralarında 800 min nəfərə yaxın insan təmsil olunur. Bu gün Azərbaycanda üzvlərinin sayına, kəmiyyət və keyfiyyət baxımından Yeni Azərbaycan Partiyasına rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Əminliklə demək olar ki, uzun on illiklər belə YAP cəmiyyətin aparıcı təşkilatı olaraq qalacaq. Çünki, bu partiyanın qurucusu Ulu Öndərimiz Heydər Əliyevdir. Dahi Öndərimiz Heydər Əliyevin dediyi kimi, "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".

Azərbaycan xalqını bundan sonra daha xoşbəxt və firavan yaşayış gözləyir. Çünki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin davam etdirdiyi siyasət Azərbaycanın bu günü kimi gələcəyinin də işıqlı və parlaq olmasını özündə ehtiva edir. Necə ki, Ulu Öndərimiz Heydər Əliyev zamanında demişdir: "Azərbaycan dünyaya günəş kimi doğacaq".

# "ABŞ və Azərbaycan bir çox istiqamətlərdə müttəfiqlik əlaqələrinə sahibdir"

## *POLİTOLOQ MÜNASİBƏT BİLDİRDİ*

"ABŞ prezidenti Co Bayden Azərbaycan Prezidenti İlham Əliyevə 28 May-Müstəqillik günü münasibətilə təbrik məktubu göndərib. Hesab edirəm ki, bu dövlətlərarası yazışmalarda prosedur qaydası olmaqdan daha çox ABŞ-ın Azərbaycanla münasibətlərinə, bir çox istiqamətlərdə birgə fəaliyyətinə verilən qiymətdir. Çünki Azərbaycan uzun illər ərzində ABŞ ilə dünyanın müxtəlif bölgələrində sülhü təminetmə və sülhün qorunması istiqamətində atılan addımlarda, eyni zamanda terrorizmə, silah qaçaqmalçılığına, narkotizmə qarşı mübarizədə birgə fəaliyyət göstəriblər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.





Onun sözlərinə görə, Azərbaycan bu istiqamətdə ABŞ tərəfindən atılan addımlara öz dəstəyini nümayiş etdirib: "Dövlətimiz Kosovada, İraqda, Əfqanıstanda koalisiya qüvvələrinin sülhyaratma missiyasında iştirak edərək dünyada sülhün bərqərar olması və bəşəriyyətin gələcəyi üçün təhdid törədəcək bir çox məsələlərlə bağlı dünya gücləri ilə bir yerdə olduğunu göstərib. Bu mənada ABŞ və Azərbaycan bir çox istiqamətlərdə müttəfiqlik münasibətlərinə sahibdir. Eyni zamanda, 44 günlük Vətən müharibəsi bitdikdən sonra Azərbaycanın Cənubi Qafqazda sülh əldə olunması istiqamətində ardıcıl təşəbbüslərinə ABŞ-dan dəstək görməkdəyik. Xüsusilə bu ilin əvvəllərindən başlayaraq bir neçə dəfə ABŞ rəsmiləri tərəfindən Ermənistan-Azərbaycan arasında münasibətlərinin tənzimlənməsi ilə bağlı real mövqe ortaya qoyulub, həm liderlər, həm də xarici işlər nazirləri səviyyəsində görüşün təşkil olunmasında addımlar atılıb".

Politoloq sözlərinə davam edərək bildirib ki, bəzən nail olunan bu görüşlər çərçivəsində də bölgəyə sülh gətirilməsi yolunda ABŞ-ın təşəbbüslərinin şahidi olmuşuq: "Ümumiyyətlə, ABŞ-ın Cənubi Qafqaza münasibətdə iki fərqli yanaşmasına müşahidə edirik.

ABŞ və Azərbaycan münasibətləri davamlı şəkildə inkişaf edir. Co Bayden bu məktubu ilə bölgədə sülh prosesinin qaranti rolunda məhz Azərbaycanın çıxış edə biləcəyini bəyan etmiş oldu. Eyni zamanda, ABŞ prezidenti Azərbaycan ilə təhlükəsizlik, iqtisadiyyat da daxil olmaqla bir çox istiqamətlərdə əmkdaşlıqda maraqlı olduqlarını qeyd edib. Hesab edirəm ki, bu Azərbaycanın bölgədəki artan nüfuzunun göstəricisidir".

***Ləman Əlizadə***

## Maaşın gecikməsinə görə kompensasiya alınır?

"Aylıq əməkhaqqı işçilərə, bir qayda olaraq, iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilməlidir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Şamil Paşayev deyib. Onun sözlərinə görə, əməkhaqqı illik dövr üçün hesablanan işçilərə isə ayda bir dəfədən az olmayan müddətdə verilməlidir: "Əmək müqaviləsində əməkhaqqının verilməsinin başqa müddətləri də müəyyən edilə bilər".

Şamil Paşayev sözlərinə belə davam edib: "Əmək haqqının verilməsi iş günü hesab edilməyən bayram günlərinə təsadüf etdikdə bir gün qabaq verilir. Əmək haqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı 1 faizi məbləğində ödənc verilməlidir".

***Ayşən Vəli***



# Azərbaycan Xalq Cümhuriyyəti: təhsildə islahatlar

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsirlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi vardır. Lakin XIX əsrin əvvəlində xalqımız dövlətçiliyindən məhrum olmuşdu. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan xalqının həyatında tarixi hadisə olmuşdur və xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifələrindəndir". AXC xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin böyük xidmətləri olmuşdur. AXC yarandığı zamandan xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Belə ki, həm xaricdən, həm də daxildən daşnak ermənilər, həmçinin, menşevik qüvvələr Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına mane olurdular. Lakin bütün bu çətinliklərə baxmayaraq, Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb. "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması çox çətinliklərlə başa gəlmişdir. Çünki məlumdur ki, buna kənardan mane olmaq istəyən qüvvələr də çox idi və Azərbaycanın həyatında da vəziyyət çox qarmaqarışıq, ağır, çətin idi. Ancaq Xalq Cümhuriyyəti yaranandan sonra onun fəaliyyəti də böyük çətinliklərlə, problemlərlə, böyük müqavimətlərlə, maneələrlə rastlaşmışdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaşamış, fəaliyyət göstərmiş və iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur", - deyə Ulu Öndər bildirmişdir. Qısa müddətdə genişmiqyaslı demokratik islahatlar həyata keçirilib. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub.







### XALQIN MİLLİ MƏNLİK ŞÜURUNU ÖZÜNƏ QAYTARDI

28 May Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı tarixdən 105 il ötür. AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur. Yüz beş il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatında böyük tarixi, ictimai-siyasi hadisəyə çevrildi. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının xidmətləri danılmazdır. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların və peşəkar hərbçilərin adları xalqımızın yaddaşında əbədi həkk olunmuşdur. AXC Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Tarixdən bildiyimiz kimi, AXC Hökuməti 1918-ci il mayın 28-dən iyunun 16-dək Tiflisdə, iyunun 16-dan sentyabrın 17-dək Gəncədə, sentyabrın 17-dən 1920-ci il aprelin 28-dək Bakıda fəaliyyət göstərmişdir. AXC Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdı. Dünyanın bir çox ölkələri ilə səfirlik və nümayəndəliklər səviyyəsində diplomatik münasibətlər yaratmış, ikitərəfli və çoxtərəfli müqavilələr və sazişlər bağlamışdı. AXC 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalarını kobudcasına pozan RSFSR-ın hərbi müdaxiləsi nəticəsində, aradan qaldırıldı. Şimali Azərbaycan rus-bolşevik qoşunları tərəfindən işğal edildi və yenidən Rusiyaya tabe olundu. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etdi.

### TƏHSİLƏ YETİRİLƏN DİQQƏT: 200-DƏN ÇOX QANUN QƏBUL OLUNDU

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, "Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər".

Bəli, qısa bir zamanda təhsil sahəsində də uğurlar əldə edildi. 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti təhsil sahəsində bir sıra islahatlar həyata keçirdi. 30 iyun 1918-ci ildə respublikada xalq maarifini, məktəb təhsilini qaydaya salmaq, milli ali, orta və ibtidai məktəb şəbəkəsi yaratmaq, mövcud məktəbləri milliləşdirmək məsələlərini həll edəcək qurum kimi Xalq Maarif Nazirliyinin (XMN) ştat cədvəli və əsasnaməsi hökumətə təqdim edildi. Azərbaycan Cümhuriyyəti hökumətinin 1918-ci il 28 avqust tarixli qərarına əsasən, bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan dilinin tədrisi isə məcburi surətdə həyata keçirilməli idi. Ali, ibtidai və orta tədris müəssisələrində dərslər dövlət dilində aparılmalı idi. Azərbaycan dilini bilməyən şagirdlər üçün 3-cü və 4-cü siniflərdə Azərbayan dili şöbələri açılmalı və burada Azərbaycan dili elə intensiv tədris olunmalı idi ki, iki ildən sonra həmin şagirdlər artıq bu dildə təhsillərini davam etdirə bilsinlər.

Cümhuriyyət hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində Azərbaycanda dövlət hesabına 23 orta ixtisas təhsili məktəbi və 637 ibtidai məktəb fəaliyyət göstərirdi. Müəllimlər seminariyaları istisna olmaqla, 1919-20-ci tədris ilində Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların da 3115 nəfəri azərbaycanlı idi. Xalq təhsilinin milli zəmin üzərində yenidən qurmaq üçün ixtisaslı müəllim kadrları və dərs vəsaitlərinə böyük ehtiyac var idi. O dövrdə Azərbaycanda mövcud müəllim kadrları və dərs vəsaiti heç də kifayət qədər deyildi. Vəziyyətdən başlıca çıxış yolu Türkiyədən müəllim kadrları dəvət etmək idi. XMN məktəbləri dərs vəsaitləri ilə təmin etmək məqsədilə xüsusi komissiya yaratmışdı. Həmin komissiyanın fəaliyyətinə o dövrün görkəmli pedaqoqları Hüseyn Cavid, Mahmud bəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə və b. cəlb edilmişdilər. 1919-cu il sentyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə xalq məktəbləri üçün Türkiyədən dərs kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinə bir milyon manat vəsait ayrılmışdı.

### İBTİDAİ TƏHSİL ŞƏBƏKƏSİ GENİŞLƏNDİRİLDİ

İbtidai və orta məktəblər üçün dərsliklər nəşr olundu, respublikanın müxtəlif bölgələrində seminariyalar açıldı, Bakı Dövlət Universitetinin əsası qoyuldu, kənd təsərrüfatı institutunun yaradılması haqqında qanun qəbul edildi. Ölkə hökuməti təkcə universitet açmaqla kifayətlənməyərək, lazımi mütəxəssislərin yetişdirilməsi, xüsusən də azərbaycanlı gənclərin ali təhsil alması üçün xaricə göndərilməsi yollarını axtarırdı. Ağır hərbi-siyasi vəziyyətə baxmayaraq, azərbaycanlıların Avropa universitetlərində oxumaq üçün xaricə göndərilməsi qərara alındı. Azərbaycan Demokratik Cümhuriyyəti hökuməti və Xalq Maarifi Nazirliyi ölkədə Bakı Dövlət Universitetinin, Əkinçilik İnstitutu və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırdı. Bunlardan ancaq birini - Bakı Dövlət Universitetini açmaq mümkün oldu. Həmin zamanda ibtidai təhsil şəbəkəsinin genişləndirilməsi mümkün oldu. 1919-cu ildə ölkədə dövlət hesabına 15 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Bakı, Gəncə, Şuşa, Nuxa (Şəki), Zaqatala və Qazaxda yaşlılar üçün xüsusi kurslar açıldı.

Artıq 1919-cu ildə Azərbaycanda 23 dövlət orta təhsil müəssisəsi vardı: 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 "Müqəddəs Nina" qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi. Bakı Qadın Seminariyası kişi seminariyasına çevrildi, orada təhsil alanlar üçün (40 nəfər idi) pansion açıldı. 1918-1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirilmiş, Bakıda Darülmüəllimin və Darülmüəllimat, Nuxada Darülmüəllimin açılmış, Zaqatala, Ağdam və Şuşada belə tipli müəssisələrin yaradılması nəzərdə tutulmuşdu. Sentyabrın 17-də seminariyada dərslər başlanmış, Firudin bəy Köçərli Qori Seminariyasının məzunları Y.Qasımov, İ.Vəkilov, Ə.Hüseynov, M.Hüseynovu müəllim sifəti ilə seminariyaya cəlb etmişdi.

### 100 NƏFƏR AZƏRBAYCANLI GƏNCİN XARİCƏ GÖNDƏRİLMƏSİ HAQQINDA QƏRAR

Mənbələrdə qeyd olunur ki, Azərbaycan Parlamenti 1919-cu il sentyabrın 1-də Bakıda dövlət universitetinin açılması haqqında qanunla bərabər, 1919-20-ci tədris ilində dünyanın müxtəlif ali məktəblərində dövlət hesabına təhsil almaq üçün 100 nəfər azərbaycanlı gəncin xaricə göndərilməsi haqqında da qərar qəbul etdi. Bunun üçün 7 milyon manat vəsait ayrıldı. Avropa ali məktəblərinə göndərilən hər tələbəyə 400 frank təqaüd təyin olundu. Xarici universitetlərin məzunları təhsillərini başa vurduqdan sonra ən azı iki il Azərbaycanda dövlət qulluğunda işləməli idilər. Dövlət təqaüdündən istifadə edən tələbələr təhsillərini bitirdikdən sonra dörd il hökumətin təyinatında işləməli idilər. 1919-cu il sentyabrın 1-də Cümhuriyyət Parlamenti qərar verdi: Azərbaycan Xalq Cümhuriyyətinin dövlət büdcəsindən yüz nəfər tələbənin xarici universitetlərdə təhsil almasının təmin eilməsi üçün Təhsil Nazirliyinin büdcəsinə 7 milyon rubl pul köçürülsün.

Azərbaycan Xalq Cumhuriyyəti yarandığı dövrdən başlayaraq təhsilin tamamilə yenidən qurulmasında əhəmiyyətli dövr başlandı. Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi yer alıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Milli azlıqların mədəni kimliyinə təminat verən tolerant Azərbaycan



Qərb fəlsəfi fikrində özünə yer almış multikulturalizm mədəniyyətlərin müxtəlifliyi və çoxçalarlılığını ifadə edir. Azərbaycan qədim zamanlardan müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuş, ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı mədəni məkana çevrilmişdir. Tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda multikulturalizm siyasəti dövlət siyasəti kimi qəbul edilərək Qərb dövlətləri ilə müqayisədə daha səmərəli şəkildə həyata keçirilir. Azərbaycan sivilizasiyalar arasında körpü rolunu oynayan bir dövlətdir və dünya bizim təcrübəmiz öyrənir.

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb edir. Bu gün artıq ölkələr, xalqlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı bir zamanda əməkdaşlıq, mədəniyyətlərarası dialoq vacib məsələlər sırasındadır. Ölkəmizin bu sahədə həyata keçirdiyi siyasət və əldə etdiyi təcrübə başqa dövlətlər üçün də nümunə göstərilir. Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşadığı məkan olub. Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı, qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi. Ümummilli Liderin Azərbaycanda milli azlıqlarla bağlı siyasəti beynəlxalq qurumlar tərəfindən də hər zaman müsbət qarşılanıb.

### ÜMUMDÜNYA DİALOQ VƏ İNKİŞAF NAMİNƏ MƏDƏNİ MÜXTƏLİFLİK

Bildiyimiz kimi, 21 May - Ümumdünya Dialoq və İnkişaf Naminə Mədəni Müxtəliflik Günüdür. Bu gün BMT Baş Məclisi tərəfindən 2002-ci ilin dekabrında təsis edilib. Dialoq və İnkişaf Uğrunda Dünya Mədəni Müxtəliflik Günü ilk dəfə 2003-cü il mayın 21-də keçirilib. Hazırda dünya mədəniyyətini çox müxtəlif amillər təhdid edir. Milli özünəməxsusluğun həddən artıq qorunması müxtəlif azlıqların mədəniyyətləri üçün təhlükə yaradır, eləcə də din mədəniyyətə təzyiq göstərir. Digər tərəfdən isə praktik olaraq dünyanın bütün ölkələrində qloballaşmanın təsiri altında dillər yox olur, ənənələr itirilir, zəif mədəniyyətlər kənarda qalır, bəzən də tamamilə yox olur. BMT konvensiyalarına qoşulan Azərbaycan mədəni müxtəlifliyin tanınmasına əsaslanır və mədəniyyətlərarası mübadiləni dərk edərək, daha çox həmrəyliyin bərqərar olmasına cəhd göstərir.

### SÜLH, QARDAŞLIQ VƏ QARŞILIQLI HÖRMƏT

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğatı və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bəyan etdiyi dəyərlər göz qabağındadır. Milli mənəvi dəyərlər, azərbaycançılıq, milli, dini dözümlülük, tolerantlıq sosial-iqtisadi inkişaf və dövlətin öz siyasi xəttinə güvənməsi davamlı inkişafın və uğurların əsas amilləridir.

Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, protestantlar, yəhudilər daxil olmaqla, müxtəlif etnik və dini qruplar əsrlərdir sülh, qardaşlıq, qarşılıqlı hörmət şəraitində yaşayır. Burada etnik və dini qruplar arasında hər zaman güclü əlaqələr olub. Bu ölkədə heç zaman dini və ya irqi ayrı-seçkilik olmayıb. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib. Ölkə ərazisində yaşayan milli azlıqlar qanunla nəzərdə tutulan hər cür təşkilat yarada bilərlər. Belə təşkilatların hüquqi vəziyyətini Konstitusiya və ya qanunlar tənzimləyir.

### TARİXİ KEÇMİŞİMİZDƏN QALAN MÜTƏRƏQQİ ƏNƏNƏ

Azərbaycanın müxtəlif guşələrində yığcam halda yaşayan 30 sayda millət və etnik qruplardan ibarətdir. Sayı, dil və dinlərinin müxtəlifliyinə baxmayaraq, onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Milli azlıqları təmsil edən mədəni mərkəzlər və birliklərlə bağlı mühüm işlər görülür. Qusar rayonundakı Ləzgi Dövlət Dram Teatrının və Qax rayonunda yaradılmış Dövlət Kukla Teatrının maddi-texniki bazaları dövlətimiz tərəfindən möhkəmləndirilib. Qax rayonunun Əlibəyli kənd Mədəniyyət evində 1981-ci ildə yaradılmış və 1985-ci ildə "xalq teatrı" adını almış gürcü dram dərnəyinə dövlət statusu verilmişdir. S. Vurğun adına Rus Dram Teatrı ilə yanaşı, Azərbaycan Dövlət Musiqili Komediya, Azərbaycan Dövlət Gənc Tamaşaçılar və Azərbaycan Dövlət Kukla Teatrlarındakı rus bölmələri fəaliyyət göstərirlər. Astara rayon Mədəniyyət evinin "Sevinc" mahnı və rəqs ansambllarının talış milli azlığının adət-ənənələrinin, milli rəqs və mahnılarının təbliği sahəsində rolu vardır. Astarada "Məhsul", "Əkinçi", "Şum" bayramları keçirilir.

Bu gün Azərbaycanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək verilir. Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. Hesablamalara görə, Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Xristianlığın, demək olar ki, bütün cərəyanları ölkəmizdə təmsil olunmuşdur. Belə ki, Azərbaycanda pravoslav, katolik, lüteran və protestant təriqətlərin, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar yaşayır. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində albanudilər) rayonlarının əhalisidir. Katoliklər daha çox Bakı şəhərində yaşayırlar.

Azərbaycan 2 min ildir yəhudi icması üçün təhlükəsiz sığınacaq və vətəndir. Hazırda Azərbaycanda 7 sinaqoq fəaliyyət göstərir. Azərbaycanla İsrail, azərbaycanlılarla yəhudilər arasındakı unikal əlaqələr və əməkdaşlıq müsəlmanlarla yəhudilərin qarşılıqlı hörmət, əməkdaşlıq, sülh şəraitində birgə yaşaya biləcəyinə inanmayan, yaxud inanmaq istəməyən hər kəsə mesajdır.

Ölkəmizdə yaşayan müxtəlif xalqlar öz dini-milli bayramlarını qeyd edirlər. Bildiyimiz kimi, hər il Qubadakı Qırmızı qəsəbədə yaşayan dağ yəhudiləri Roş-xa-Şana bayramını əmin-aman şəraitdə qeyd edirlər. Yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı sayılan bu bayram günündə qəsəbə sakinləri sinaqoqa gedərək dualar oxuyur, ehtiyacı olanlara əl tutur, bayram süfrəsi arxasında toplaşaraq Tanrıdan günahlarının bağışlanmasını diləyirlər. Onuncu gündə isə bütün sutkanı ac qalmaqla oruc tutur və müqəddəs "Yom Kipur" gününü qeyd edirlər. Roş-xa-Şana bayramı dünyanın müxtəlif məkanlarında yaşayan bütün yəhudilər təntənəli şəkildə keçirir. Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin yığcam yaşadığı nadir məkandır. "Qafqazın Yerusəlimi" adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Bu gün ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşaması fikirlərimizi əsaslandırır. Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, multikulturalizm ənənələri və tolerantlıq Azərbaycan xalqının həyat tərzi, mənəvi-əxlaqi dəyəri, Azərbaycan Respublikasının siyasətidir.

***Zümrüd BAYRAMOVA***



# Həkimlərdən yarıdıq, qaldı əczaçılar...

**MƏTANƏT**

**Avropaya inteqrasiya etməkdə birinci olduğumuzu nəzərə alsaq, bu günlər Böyük Britaniyada poliklinika və xəstəxanalarda növbələrin aradan qaldırılması üçün ölkədəki aptek əczaçılarına xəstəlikləri olan müştərilərə dərman preparatları yazmaq hüququnun veriləcəyi xəbərini eşidən kimi, dedim, bəxtəvər başımıza...**

Nə üçün? Çünki dövlətimiz tərəfindən illərdir, səhiyyənin inkişafına xüsusi qayğı göstərilsə də, bu sahədə onlarla sənəd qəbul olunsa da, hələ də bu qayğıya cavab verəcək səhiyyə xidmətini görməməkdəyik. Belə isə apteklərə bu səlahiyyət verilərsə, onda bizim halımız necə olar?

Böyük Britaniya ilə ölkəmizin aptek əczaçılarını müqayisə etməyə dəyməz. Düşünürəm ki, onların əczaçıları bizim bəzi həkimlərimizdən irəlidə olarlar.

Bu arada qeyd edim ki, bəli, bəzi həkimlərdən söhbət gedir. Həqiqətən ölkəmizdə çox gözəl, sənətinin sahibi olan həkimlər var. Amma təəssüf ki, həkimlikdən bixəbər olanlar onlardan on qat artıqdır...

Keçək mətləbə. Məsələ belədir ki, Böyük Britaniyanın əczaçıları boğaz və qulaq ağrısı, sidik yollarının iltihabı və sair şikayətləri olan şəxslərə resept yaza biləcək. Bu sətirlər ötən il boğaz ağrısı üçün bir klinikada başıma gələn hadisələri xatırlatdı. Deməli, boğazım ağrıyır, getdim həkimə, yoxladı, USM-ə göndərdi, resept yazdı. Bir həftə dərmanları içdim, elə bir dəyişiklik olmadı. Sonra endokrinoloqa müayinə olunmağımı məsləhət bildilər. O da göndərdi kompüter tomoqrafiya müayinəsinə. Həkim diaqnoz yazdı, lakin qarşısına sual işarəsi qoydu. Nə isə, bunu götürüb getdim endokrinoloq həkimə. Həkim xeyli danışdı, nəyi isə izah etməyə çalışırdı. Necə ki, aşığın sözü qurtaranda "neynim, neynim" deyər, eynilə həkim də o vəziyyətdə idi. Təbii ki, heç nə anlamadım. Heç bir dərman da yazmadı. O da məsləhət gördü ki, başqa bir həkimə də müraciət edəm. Özümü ağlamaq qarışıq gülməkdən ancaq saxlamışdım. Daha sonra mənə telefon nömrəsi verib nə desə yaxşıdır: boğazına nə etsən, yaxşılaşsan, nəticəni mənə də deyərsən. Mən də yaxşı dedim, ancaq qapıdan çıxan kimi telefon nömrəsini cırıb həkimin qapısının ağzındakı zibil qutusuna atdım.

Eşidəndə ki, Böyük Britaniyada digər bir neçə xəstəliklə yanaşı, boğaz ağrısı üçün də insanlar aptek əczaçılarına müraciət edəcəklər, bir anlığa ötənilki xatirələr fonunda "bizdə də belə olarsa, halımız necə olar",- deyə düşündüm. Çünki bizim ən məşhur klinikada həkim dərdimə dava ola bilmədi. Aptekdəki əczaçılar nə çarə qıla bilər insanlara? Axı onların əksəriyyəti 4-cü ixtisas qrupu üzrə arzuladıqları ixtisaslara lazımi balı toplaya bilməyib, sonda "əşi əczaçılıq olsun, nə etməli" deyənlərdir. Sözsüz ki, bizdə də sənətinin sahibi əczaçılar var. Lakin yaxşı həkimlərimiz kimi, onlar da barmaqla sayacaq qədərdir. Bəli, əczaçılarımız var ki, gedirsən aptekə dərman almağa, sənə elə gözəl məsləhətlər verirlər ki... Əczaçılarımız da var ki, istədiyin dərmanın yerini bilmir, xeyli axtarışdan sonra onu tapıb ortaya çıxarırlar. Belə isə inşallah ki, Böyük Britaniya təcrübəsi bizdə hələlik tətbiq olunmaz. Olunarsa, halımız necə olacaq, indidən bu barədə düşünməyə dəyər...

# "Daşnaksyutun" partiyası qadağan olunur

## *Akop Aslanyan: "Bu, antixalq partiyasıdır"*

Ermənistan parlamentinin hakim "Vətəndaş sazişi" partiyasının deputatı Akop Aslanyan "Daşnaksyutun" partiyasının fəaliyyətinin dayandırılması və qadağan edilməsi vacibliyindən danışıb. Onun sözlərinə görə, artıq h'min proses barədə ilkin təşəbbüslər irəli sürülüb. Bu barədə Ermənistanın "Hraparak" nəşri yazır.

***"Daşnaksyutun" erməni cəmiyyətinin parçalanmasına xidmət edib"***

Aslanyan qeyd edib ki, 1998-ci ildə "Daşnaksyutun" partiyasının qadağan olunması barədə daha əvvəl verilmiş qərar ləğv edilərkən bu təşkilat öz qurultayını keçirdi və nəticədə erməni cəmiyyətində kəskin parçalanmalara başlanıldı. Həmçinin, bu partiya siyasi terror faktoru olaraq istər Ermənistana, istərsə də regiona öz mənfi təsirlərini sürətlə göstərməyə başladı. Qeyd edək ki, 1994-cü ildə Ermənistanın 1-ci prezidenti Levon Ter-Petrosyanın qərarı ilə adıçəkilən təşkilatın fəaliyyətinə xitam verilmiş və ölkədə hər hansı siyasi məsələlərə müdaxiləsinə qadağa qoyulmuşdu.

***"Daşnaksyutun" ölü partiya olaraq siyasi səhnəni tərk edəcək"***

Lakin Levon Ter-Petrosyanın devrilməsindən sonra Robert Koçaryan yenidən daşnakları Ermənistanın siyasi səhnəsinə geri qaytarmışdı.

"Daşnaksyutun" öz fəaliyyətini dayandırmalıdır, çünki o, antixalq və antierməni partiyasıdır", deyə qeyd edən Aslanyan onu da bəyan edib ki, bu fikirdə yalnız onun özü deyil ölkənin digər tanınmış siyasi və s. xadimləri də bu reallığı bölüşürlər. Aslanyan artıq "Daşnaksyutun" partiyasının fəaliyyətinin dayandırılması istiqamətində materiallar topladığını və onun casusluq fəaliyyətini sübut edən faktlar əldə etdiyini də gizlətməyib. "Cəmi bir neçə ildən sonra "Daşnaksyutun" ölü partiya olaraq siyasi səhnəni tərk edəcək", deyə erməni deputat bildirib.

***Afət Tahirqızı***

# Hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir

HEYDƏR ƏLİYEV 100



Bu gün xalqımız böyük sevinc və qürurla müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi ümummilli liderimiz Heydər Əliyevin 100 illiyini qeyd edirik. Bu yubiley ili daha yaddaqalan fərqli bir tarixdir. Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" imzaladığı Sərəncam bir daha xalqımızın öz liderinə olan məhəbbətinin təzahürüdür. Sərncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Bəli, ulu öndərimizin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir və zaman ötdükcə Onun Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur.

"Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə məxsusdur! Əslində doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndəri Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bütün mənalı ömrünü xalqına həsr etmiş ulu öndər Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının şərəfli tarixində dərin və pozulmaz izlər buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Dahi öndər hələ Azərbaycana rəhbərliyinin birinci dövründə - 1969-1982-cit illərdə bütün varlığı ilə sevdiyi xalqının xoşbəxt gələcəyi naminə əlindən gələni əsirgəməmişdir. Ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrləri xatırlayarkən deyirdi: "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı".

Azərbaycan sosial-iqtisadi vəziyyətinə görə SSRİ-nin tərkibində olan 15 respublika sırasında sonuncu yerlərdə qərarlaşırdı. Amma Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra ilk 5 illikdə inkişaf baş verdi. Belə ki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə, göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Kəndlinin güzəranı və məişət şəraiti dəyişdi. Azərbaycan kəndi palçıq komalardan qurtularaq simasını dəyişdi. O vaxtdan həyətində minik avtomobili, ikimərtəbəli ağ mişar daşından evi, məişətində hər növ elektrik cihazları olan kəndli ailələri Azərbaycan kəndlisini xarakterizə edən başlıca əlamətə çevrildi. Bu gün elə bir kənd tapılmaz ki, orada Heydər Əliyev dövrünü xatırladan bir neçə "abidə"yə rast gəlinməsin. Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir.

Ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu sıralarında da milli kadrların yetişməsinə və yerləşməsinə çalışırdı. Ölkəyə birinci rəhbərliyi dövründə Azərbaycanda fəaliyyət göstərən hərbi məktəblərlə maraqlanan ümummilli lider orada nəinki təhsil alanların, hətta dərs deyənlərin sırasında belə azərbaycanlıların tək-tük olduğunu bilmişdi. Çox keçmədən Ulu öndərin təşəbbüsü və şəxsi himayəsi altında Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb açıldı. Tezliklə bu məktəb böyük şöhrət qazandı. Yeniyetmələr həvəslə burada oxumağa gəlir, sonra təhsillərini keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərində uğurla davam etdirirdilər. Qarabağ uğrunda döyüşlərdə məktəbin müdavimləri böyük şücaət göstərdi, bir çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü. Müstəqillik dövründə milli ordu quruculuğunda vaxtilə C.Naxçıvanski adına hərbi təmayüllü məktəbi bitirən zabitlərin əməyi böyük olmuşdur. Onlar bu gün də orduda ləyaqətlə xidmət edir, Heydər Əliyev ideyalarına sadiqliklərini nümayiş etdirirlər.

1990-cı ilin 20 yanvar xalqımıza qarşı əsrin ən böyük cinayətlərindən biri törədildi. Dağlıq Qarabağa qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal edildi, 20 mindən çox insan şəhid, 30 mindən artıq adam isə əlil, şikəst oldu. Belə ağır bir zamanda Heydər Əliyev öz həyatını təhlükə altına alaraq xalqı ilə birgə olduğunu bəyan etdi.

## 1993-CÜ İL 15 İYUN - XİLASKAR MİSSİYALI QAYIDIŞ

Ulu öndərin ikinci dəfə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gəlişi, nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Və Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı, qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Dahi Şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, Ümummilli Liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri bir ömrün qızıl salnaməsidir. Ulu Öndər həmin dövrdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycanı bəxş etdi.

## HEYDƏR ƏLİYEVİN ARZULARINI GEÇƏKLƏŞDİRƏN QALİB LİDER İLHAM ƏLİYEV

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu, sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 20 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur.

Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı.

Azərbaycxan Prezidenti, Qalib Lider İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Güclü Azərbaycan ordusunun rəşadətli əsgər və zabitlərin qəhrəmanlığı ilə son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Və bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanın yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə cəzalandırdı. Xüsusilə, Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən Cənab İlham Əliyev həm də ATA vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətə gələn həqiqətdir ki, Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi Cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü! Uzaqgörən və əbədi liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir!

Şəhidlərimizin, ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan!". Bəli, bu dövlətçilik tariximizlə yanaşı, həm də dünyanın yeni tarixinə yazılan bu qalibiyyət simvolunda xalqımızın iki övladının - Ulu Öndər Heydər Əliyevin və Böyük Sərkərdə, Prezident İlham Əliyevin adlarının qızıl hərflərlə həkk olunması artıq danılmaz bir gerçəklikdir - ATA vəsiyyətinin və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi! Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin bir zamanlar bütün dünyaya bəyan etdiyi kimi, Azərbaycan vətəndaşının ən gözəl sabahları öndədir, ən qüdrətli zamanları irəlidədir! Və Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bütün sahələrdə davamlı uğurlara imzanın atılması, Azərbaycanın dünya dövlətlərinin imzaları arasında imzasının olmasıdır. Bu, Heydər Əliyev işığının nurlandırdığı yolun davamçısı Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev yolunun dönməz və sarsılmaz yoludur. Bəli, ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində Qarabağ problemi yoxdur! Və bu gün Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

***YUSİF MUSAYEV,***
***Şabran Rayon Statistika İdarəsinin rəisi***

# Şəfanın qədim, müasir və gələcək adı - Zəli

*Müasir cərrahiyyə, xüsusilə, mikrocərrahiyyə tətbiqlərində zəlidən çox istifadə edilir*



**Zəlinin orqanizmdəki zəhərli qanı əmmə bacarığı qədimdən bəri bilinir. Bir çoxumuzun gorəndə iyrəndiyi, ürəyimizin bulanmasına səbəb olan bu kiçik varlıqların elmi dildə adı "Hirudo Medicinalis"dir. Zəli ilə müalicə alternativ tibbdə ən çox yayılmış müalicə üsuludur. Zəlinin elmə məlum olan 600-dən çox növü var, amma onlardan yalnız bir neçəsi səhiyyə məqsədli istifadə edilir. Zəli müalicəsinin tətbiqindən ilk dəfə Hipokrat dövründə bəhs edilir. Hind tibabətinin banisi olaraq qəbul edilən Dhavantari də bütün rəsmlərdə bir əlində bal, digərində zəli ilə təsvir edilir.**

Zəli müalicəsi Çində və Misirdə də geniş tətbiq olunub. Firon məzarlarında zəli ilə müalicənin necə tətbiq ediləcəyini izah edən kitabələr də var. Zəli qədim yunan və Roma dövründə də ən yaxşı və effektiv müalicə üsulu kimi istifadə edilib. Qədim Romanın böyük tibb bilicisi Qalen itirilən sağlamlığın zəli ilə geri qazanıla biləcəyini yazırdı, İbn Sina isə zəli müalicəsinin faydalarının heç bir tibbi prosedurla qazanıla bilinməyəcəyindən bəhs edirdi. Qədim dövrlərdə zəlini daha çox açıq yaraların müalicəsində tətbiq edirdilər.

### Balaca, sürüşkən, qara "həkim" nələr bacarmır ki?

Hazırda zəli müalicəsi iltihablı yaralar, çiban, oynaq ağrıları, sonsuzluq, qan və qan dövranı problemləri, habelə cinsi yolla yoluxan infeksiyalar, xroniki iltihab prosesləri, ürək qüsurları, ürəyin işemik ritmi, stenokardiya, maddələr mübadiləsinin pozuntusu, osteoxandroz (duzlaşma), uroloji, ağ ciyər, qara ciyər, mədəbağırsaq, cinsi sfera, ginekoloji, cərrahi xəstəliklərdə (varikoz genişlənmə, babasil, hidradenit, çiban), revmatizm, dəri və hamısını yazası olsaq, qəzet səhifəsinə yerləməyəcək çox olan bir sıra xəstəliklər zamanı tətbiq edilir. Zəli-terapiya yeganə vasitədir ki, hətta ölmüş sinir hüceyrələrini də bərpa edir.

Elə müalicə üsulları var ki, o qədimdə qalır, müasir tibb onu qəbul etmir və faydasını yetərsiz hesab edir. Amma zəli müalicəsi alternativ tibbin ən vacib elementi hesab edilir. Müasir cərrahiyyə, xüsusilə, mikrocərrahiyyə tətbiqlərində də daha çox istifadə edilir. Rekonstruktiv cərrahiyyədə, qan dövranı kritik həddə olan toxumalarda və orqanlarda (məsələn, göz qapağı, barmaq, qulaq) qan dövranını nizamlamaq üçün zəliyə müraciət edilir. Çünki zəlinin tüpürcəyində qanı duruldan xüsusi maddə var və bunu hələ 1884-cü ildə araşdırmaçı John B. Haycraft kəşf etmişdi. Amma indi zəlini tək qanı durultması üçün yox, həm də laxtalanma yaratması üçün də tətbiq edirlər.

### Müasir tibbin müalicə edə bilmədiyi miqrenə zəli şəfası

Müasir tibbin kökündən həll edə bilmədiyi miqren xəstəliyinin dərmanı da məhz zəlidədir. Adətən miqren xəstələrini incidən dəhşətli ağrılar beyinə normal qan axışı olmamasından qaynaqlanır ki, zəli bu problemi də həll edir. Belə ki, beyin damarlarını tıxayan kiçik qan laxtaları miqren ağrılarına səbəb olur, amma zəli bu laxtaları duruldur və normal qan dövranını tənzimləyir. Bir neçə dəfə tətbiq edilən zəli müalicəsi zamanı onun tüpürcəyindəki "hirudin" maddəsi qan laxtalarının təkrar yaranmasının qarşısını alır.

Miqren ağrılarını kəsmək üçün normal qan dövranı önəmli faktordur. Güclü ağrıkəsicilərə öyrəşən orqanizm getdikcə daha çox ağrıkəsici tələb edir və dərmanların tərkibindəki toksinlər orqanizmə daha çox zərər verir. Amma zəli miqren problemini bir tüpürcəyi ilə həll edə bilir.

### Elm zəli tüpürcəyinin yalnız 20 faizini öyrənə bilib

Zəli ilə müalicə prinsipcə çox sadədir. Zəlinin ağız suyunun tərkibində 100-ə yaxın zülal komponenti və ya bioloji aktiv maddə var ki, bu da zəlinin müalicəvi təsirini gücləndirir. Zəli qan əmərkən bioloji və farmakoloji tərkibli xüsusi tüpürcək ifraz edir. "Hirudin" maddəsi bu tüpürcəyin əhəmiyyətli komponentlərindəndir. Bu tüpürcək başqa maddələr də ehtiva edir. Bu maddələrin ağrı kəsici, damar genişləndirici, laxtalanma önləyici, iltihab və iltihab fəsadlarını aradan qaldırıcı, immunitet nizamını qoruyan, mikrob və bakteriya düşməni olan antibiotik özəlliyi var. Qeyd edək ki, müasir elm zəli tüpürcəyində olan maddələrin yalnız 20%-ni öyrənə bilib.

Sovet hakimiyyəti illərində Azərbaycanda xüsusi zəli biofabriki də olub, burada istehsal edilən zəlilər bir çox ölkəyə də icrac edilirdi. Masallının Mollaoba kəndində yaradılmış zəliyetişdirmə kombinatında bu işlə geniş məşğul olunub. Lakin hazırda ölkədə zəli tədarükünə heç bir nəzarət yoxdur, ölkəmizdə zəlilər təbii surətdə artıb-çoxalır. Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya institutundan biofabrikin niyə ləğv edilməsi barədə heç nə öyrənmək mümkün olmadı.

### Zəli müalicəsi necə tətbiq edilir?

Zəli əvvəlcə dərini 1,5-2 mm dərinliyində dişləyir və qanı sorur. Bu balaca, qara və sürüşkən "həkim"lər bir dəfəyə 3-5 ml qan sora bilir. Bir prosedur zəli doyanadək, təxminən 20-60 dəqiqə arasında bir müddətə reallaşdırılır. Daha sonra zəli yaraya ağız suyundakı "hirudin" fermentlərini axıdır. Prosedur başa çatdıqdan sonra yaradan normal halda qan, limfa, maye toxuma axır. Axıntı 6-16 saat davam etməlidir. Zəlinin sorduğu yerdən axan qanın miqdarı normal halda 50-300 ml həcmində olmalıdır, qanaxmanın güclənməməsi üçün yaraya tampon tətbiq edilir. Dişləmə yerinə yod və ya başqa tibbi maddə sürtmək olmaz. Zəli etirli və alkoqollu bədəndə qan sormur, onun bu qoxulardan, habelə siqaret iyindən xoşu gəlmir.

Zəlilər adətən bir dəfə istifadə edilir. Belə ki, tətbiq edildiyi zonada zəhərli qanı əmən zəli şişir və yararsız hala düşür. Zəlidən bir dəfə istifadə edildiyi üçün də başqa pasiyentlərin fərqli xəstəliklərə yoluxması təhlükəsi olmur. İstifadə olunmuş zəli xüsusi qaba qoyularaq atılır. Bunu bizimlə söhbətində Serotonin Psixologiya Mərkəzinin fizioterapisti, hirudoloq Aytac Məmmədova xüsusilə qeyd etdi. Müsahibimiz deyir ki, bəzi ölkələrdə zəlini ikinci dəfə istifadə etmək üçün mədəsini yuyurlar, xüsusi şəraitdə 8 ay qulluq edilir: "Bizim zəli ilə təminatımızda heç bir problem olmadığı üçün belə bir risk almırıq, istifadə edilmiş zəlini başqa bir pasiyentə tətbiq etmirik, xüsusi qabda atırıq. Zəliləri təbiətdən xüsusi bu işlə məşğul olan insanlar toplayır, biz də onlardan əldə edirik. Bir zəlini ötən il 1 manata alırdıq, amma hazırda 1.80 manatdan alırıq".

### Hansı zəli daha effektivdir?

Sadə gigiyena qaydalarına əməl edilməsə bu möcüzəvi qara həkim müalicə əvəzinə dərd də verə bilər. Xüsusilə də zəlinin bir pasiyentdən əmdiyi qanı başqa bir pasiyentə keçirə bilməsi məqamı bu müalicədə ən kritik nöqtə hesab edilir. İndi birdəfəlik istifadə edilən zəlilər keçmişdə hər prosedurdan sonra külün içinə atılaraq qusdurulur və yenidən istifadə edilirdi. Müsahimiz bunu normal hesab etmir, o birdəfəlik istifadənin tərəfdarıdır.

Aytac xanım deyir ki, dünyanın hər yerində olmayan bu kiçik "həkim"lərin ən yaxşı növləri məhz Azərbaycandadır. Üstəlik, indi ən yaxşı zəli hesab edilən Şərq zəlisi də (hirudo-orientalis) süni yox, təbii şəriatdə çoxalır. Aytac Məmmədova deyir ki, biofabrikdə yetişdirilən zəlilərlə təbiətdə təbii formada yaranan zəlilərin xeyrində də fərq olur: "Təbii formada yetişən zəlilər daha effektiv olur, amma biofabriklərdə təbii formada göl yaradılsa və ətrafdan sonra digər canlıların müdaxiləsi olmasa yararlı zəli yetişdirmək olar".

### "Çöldən-göldən yığılan zəlilər keyfiyyətsiz olur"

Hirudoloqun sözlərinə görə, Azərbaycanda əsasən zəlinin bir növündən - tibb zəlisindən istifadə edilir. Əczaxanalarda təklif edilən zəlilər, əslində, keyfiyyətli deyil, çünki əksəriyyəti sudan tutulmadır: "Fikir vermisinizsə əczaxanalardakı zəlilərin hərəsi bir rəngdədir. Amma biofabriklərdə yetişdirilənlər fərqlidir, sırf tibbi məqsəd üçün yetişdirilir. Orda mütəxəsislər işləyir, zəlini qidalandırmağı bilirlər, ordakı zəlilər təmiz olur. Hazırda Rusiyada, Ukraynada belə biofabriklər var. Bizdə də mini-fabriklər yaradıblar, onlar az sayda istehsal edirlər.

Zəlilərin keyfiyyəti harda olması ilə yox, necə yetişməsi ilə ölçülür. Azərbaycanda biofabrik olmasa keyfiyyətli zəli hardan yarana bilər? Yerli insanlar Lənkəran-Astara zonasında zəli yetişdirirlər, onlar da Rusiyaya ixrac edirlər, orada maz hazırlanır. Bu, çox qiymətli mazdır, xüsusilə varikoz damar xəstəliklərində əvəzsizdir".

### Bir dəfədən artıq istifadə edilən zəli Hepatit yaya bilər

Əczaxanalarda suyun içində saxlanan zəlilərin su ilə qidalanaraq öz keyfiyyətini itirdiyini deyən müsahibimiz bildirir ki, biofabrikdə saxlanan zəliləri bir dəfə qidalandırırlar və 6 ay o qida ona bəs edir. Bu müddət ərzində heç nə yeməyən zəli müalicə üçün yararlıdır. Həkim bir dəfə istifadə edilən zəlinin ikinci dəfə tətbiqini doğru hesab etmədiyini deyir. O bildirir ki, qan xəstəliklərinin bu vasitə ilə yayılması mümkündür: "Zəlini ikinci dəfə istifadə etmək mümkündür, amma ona xüsusi şəraitdə baxılmalıdır, qulluq edilməlidir. 6-8 aylıq bir müddət lazımdır, amma yeni zəli almaq istifadə edilmişə qulluq etməkdən daha sərfəlidir. Üstəlik, Hepatit viruslarının, yoluxucu xəstəliklərinin bu qədər yayılmış vaxtında bir zəlini ikinci dəfə istifadə etmək doğru deyil".

Məlumat üçün qeyd edək ki, reyd etdiyimiz əczaxanalarda rastlaşdığımız zəli bankalarında su içində saxlanan və alıcılara təklif edilən zəlilər elə həkimin də dediyi kimi müxtəlif rənglərdə idi. Əczaçıların dediyinə görə, zəlini alıb evdə özünə tətbiq edənlər də var. Amma həkimlər bunu doğru hesab etmirlər, onların fikrincə, zəlini peşəkar tətbiq etməlidir. Çünki naşı tətbiqetmə şəfa əvəzinə dərd gətirə bilər.

*Lalə Mehralı*

## Nar Cəlilabad Festivalında iştirak etdi!

Azərbaycanın bölgələrinə xüsusi önəm verən mobil operator Nar bu dəfə Cəlilabad Festivalındaiştirak etdi. Mobil operator festival iştirakçılarınaxüsusi Nar çadırında əyləncə ilə yanaşı, mobil nömrəsatışı və müştəri xidmətləriimkanı datəqdim etdi. Nar çadırındakı360 dərəcəli video çəkiliş ziyarətçilərin böyük marağına səbəb oldu. Mobil operatordan nömrə əldə edən, mobil cihazında "Nar+" tətbiqini istifadə edən və Nar haqqında suallara doğru cavab verən ziyarətçilər dəyərli hədiyyələrlə mükafatlandırıldı.







Qeyd edək ki, mobil operator Nar, həyata keçirdiyi layihələrlə Azərbaycanın bölgələrinə xüsusi diqqət ayırır. Bölgələrdəkiyeni konseptli Nar mağazaları ilə daha üstün xidmət gətirir, təqaüd və təlim proqramları ilə təhsil imkanlarını genişləndirir və eləcə də yüksək sürətli interneti bölgələr üçün əlçatan edir.

TƏRS BAXIŞ

# İRAN: 17 il öncəki may




**17 il əvvəl, 2006-cı ilin mayında İran hökumətinin hakimiyyəti altında yaşayan Azərbaycan türklərinin İran hökumətinin rəsmi mətbu orqanında təhqir olunmalarına qarşı etirazlar başlandı. Bu hadisə tarixə Cənubi Azərbaycanda etirazlar, Xordad hadisələri və ya Milli Qiyam Günü kimi düşdü.**






İran İslam Respublikası Xəbər Agentliyinə aid olan qəzetin 12 may 2006-cı il tarixli həftəlik cümə əlavəsinin uşaq və yeniyetmələrə aid bölməsində "Həşəratların bizləri həşəratlaşdırmaması üçün nə edək?" başlıqlı karikatura yayımlandı. Karikaturanın əvvəlində olan ilk şəkildə bir oğlan guya həşərat (tarakan) dilində həşəratdan soruşur: soosoo sooking sisko sooski sooskung (susk sözü farscada həşərat deməkdir). Cavabında isə həşərat belə cavab verir: Nəmənə? (nəmənə Cənubi Azərbaycanda "nə" anlamına gəlir). Oğlan həşəratın danışığından heç nə başa düşmür və karikatura belə davam edir: "İsti yay günləri yaxınlaşır. Yenə də həşəratlar ətrafımızı saracaqlar. Həşəratlar qorxulacaq heyvanlar deyillər. Amma məsələ onların üzsüz olmalarıdır, insan onlarla nə edəcəyini bilə bilmir. Bunun üçün sizə həşəratlar qarşısında həşəratlaşmamanız üçün bəzi taktikalar öyrətməliyəm. Məsələ həşəratların insan dilindən anlamamalarıdır. Həşərat dilinin dilbilgisi çətin olduğuna görə, özlərinin 80 faizi öz dillərində danışmaq yerinə başqa dillərdə danışmağı tərcih edərlər. Həşəratlar öz dillərini özləri belə anlaya bilmədikləri halda, siz necə anlayasınız?! Bu səbəblə onlarla sözlü müzakirə etmə yolları mümkün olmur və zorakılığı özündə ehtiva edən şirin üsullar qaçınılmaz olur". Beləliklə, hekayədə doqquz "şirin" üsul içərisində həşəratlartın bütün xüsusiyyətləri, onlarla mübarizə, hansının daha təhlükəli olması, təhlükəlilər ilə daha qəddarcasına davranmaq kimi nüanslar göstərilir.

Bir sözlə, açıq-aşkar formada sərgilənən Türklük əleyhinə münasibət İranda 10 milyonlarla yerli Azərbaycan türklərinin qəzəbinə səbəb oldu. Türklərin yaşadığı çox şəhər, qəsəbə və kəndlərdə günlərlə davam edən və geniş kütlələrin iştirak etdiyi etiraz mitinqləri təşkil edildi. Tehran, Zəncan, Təbriz, Urmiya, Ərdəbil, Əhər, Həmədan, Kələybər, Muğan, Miyanə, Marağa, Xoy, Salmas, Xiyav, Qoşaçay, Sulduz və Mərənd şəhərlərində təşkil edilən nümayişlərdə təhlükəsizlik qüvvələrinin müdaxiləsi nəticəsində çox sayda ölən və yaralananlar oldu.

Bu karikaturanın yayımlanmasından 5 gün sonra Azərbaycan türkü olan tələbələr Tehran Universitetində hadisəyə etiraz etmək məqsədilə nümayiş təşkil etdilər. ISNA xəbər agentliyinin verdiyi məlumata görə, öz dillərinə edilən təhqiri pankartlar və şüarlarla protest edən azərbaycanlı tələbələr ədalət anlayışını hər fürsətdə dilə gətirən hökuməti qınamışdılar.

Şüarlar arasında "Haray, haray, mən Türkəm", "Türkün dili ölməz, fars dilinə dönməz", "Azərbaycan əyilməz, Türkün beli bükülməz", "Ya azadlıq, ya ölüm", "Rədd olsun fars faşizmi" şüarları yer almışdı.

Bir həftə boyunca Azərbaycan türklərinin yaşadığı şəhər və qəsəbələrdə davam edən etiraz mitinqləri İslami Şura Məclisində də əks-səda tapdı. Türk kökənli millət vəkillərindən Əkbər Aləmi, Rza Rəhmani, Kərim Şafei, Eşrat Şayeğ və s. İslami Şura Məclisində nitq söyləyərək qəzetin adı keçən yayımını sərt şəkildə qınadılar. Mövzu ilə bağlı Prezidentin, Mədəniyyət və İslami İrşad nazirliyinin məsuliyyət daşıdığını bildirdilər.

Amnesty International təşkilatının bildirdiyinə görə isə minlərlə yox, yüzlərlə etirazçı İran hakimiyyəti tərəfindən həbs edilib, onlarla Azərbaycan türkü isə öldürülüb. Rəsmi hakimiyyət isə etirazlar zamanı 330 nəfərin həbs edildiyini, 4 etirazçının isə öldüyünü açıqlayıb. Cənubi Azərbaycanlı etirazçıların bildirdiyinə görə isə 5 mindən artıq etirazçı həbs edilərək, işğəncə görmüş, 150 nəfər öldürülmüş (itkin düşmüş), bir çox şəxs isə şikəst qalmışdır. Cənubi Azərbaycanlı aktivistlərin bildirdiyinə görə İran hakimiyyəti etirazçıların bir qismini diri-diri ya yandırıb, ya da Urmiya gölünə atıb. Buna görə də hökumət qüvvələri tərəfindən öldürülənlərin tam siyahısını tərtib etmək mümkün olmur.

Hadisənin nəticəsi isə belə oldu ki, əvvəlcə adı çəkilən qəzetin rəsmiləri və karikaturaçı Azərbaycan türklərinə qarşı edilən bu alçaldıcı hadisəni səhv başa düşülmə kimi şərh etdilər, lakin artan təzyiqlər nəticəsində, hekayənin yayımlandığı tarixdən 9 gün sonra -21 may 2006-cı ildə qəzet rəsmiləri üzr istədi və karikaturanı çəkən şəxs olan Mana Neyestaninin işdən qovulduğunu bildirdilər. O və baş redaktor Mehrdad Qasımfar həbs edildilər. Və məlum olan digər hadisələr...

İran İslam Respublikasının hakim dairəsi olan molla rejimi tarixin bütün dövrlərində cənubda yaşayan soydaşlarımız kimi, Azərbaycana qarşı da birmənalı mövqedə olmayıb. Bunun da elə tarixi səbəbləri var. İranda milyonlarla azərbaycanlının yaşaması, onların hər an azadlıq mübarizəsinə qalxması qorxusu, zamanında bir dövlətin iki hissəyə bölünməsi məsələsinə qayıtması, bununla bağlı tələbləri Azərbaycanın tarixi torpaqlarında köklənmiş molla rejiminin daim qorxusu, təşvişi, həyəcanı olub. Bu səbəblərdən də o tayda yaşayan azərbaycanlıların zaman-zaman öz dillərində danışmaq, təhsil almaq və digər sosial hüquqları məhdudlaşdırmaqla onları elə qorxulu bir rejimin vətəndaşına çevirməyə çalışıblar ki, səsləri çıxmasın, başlarını qaldırmasınlar. Lakin molla rejimi unudub ki, onlar azərbaycanlıdır, damarlarından azəri qanı axır və istənilən vaxt bu qan coşub o insanları azadlıqları, hüquqları uğrunda mücadiləyə səsləyə bilər.

Molla rejiminin Azərbaycana qarşı münasibətlərində tarixi faktlara nəzər salaq. 1990-cı illərdə Birinci Qarabağ Müharibəsində İran Ermənistanı silah-sursatla, ərzaqla, müxtəlif tələbat malları ilə təmin edirdi. Birinci Qarabağ Müharibəsindən sonra Ermənistan ərazilərimizə nə qədər silah-sursat toplamışdırsa, beton lövhələr yığmışdırsa, hamısı İranla birgə əməyin nəticələri idi.

Həmçinin də İkinci Qarabağ Müharibəsində-44 günlük müharibə dövründə İran tərəfdən dəfələrlə Ermənistana yardım aparan silah-sursatla, ərzaqla dolu maşın karvanı tutulmadımı? Minlərlə soydaşımızın evləri qarət olunanda, daşınanda, qapı-pəncərəsi, dam örtüyü çıxarılıb İrana satılanda molla rejimi bu insanların onların din qardaşları olduğunu xatırladımı? Ermənilər məscidlərimizi dağıdıb, müqəddəs ocaqlara İslamda haram buyurulmuş heyvanları bağlayanda İran bir İslam ölkəsi kimi susa bilməzdi. Bu, ən azından günah idi. Lakin İran susurdu.

Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında İrandan olan jurnalistin Vətən müharibəsində terrorçu qruplaşmalarının iştirakı iddiası ilə bağlı sualında da bu mövqeni gördük. Prezident İlham Əliyev bu suala sərt reaksiya verdi: "Siz bunu sual formasında verə bilərsiniz. Ancaq dediyinizin arxasında durmalısınız. Müharibə zamanı hər hansı terrorçu qrupların iştirakıyla bağlı elə hesabatlar etməkdir, dəlil, sübut yoxdur. Bu, uydurulmuş məlumatdır. Təəssüf edirəm ki, dost ölkədən olan jurnalist belə bir sual verir. Azadolunma əməliyyatında heç bir terrorçu iştirak etməyib. Bunun heç bir sübutu yoxdur. Bu sadəcə olaraq Azərbaycanı ittiham etməkdir. Bu, Ermənistan tərəfindən ediləndə anlaşılandır. Onlar üçün ağrılı məsələdir ki, onları Azərbaycan əsgəri məhv edib. Sizə tövsiyəm o olardı ki, spekulyasiyalarla məşğul olmayasınız. Siz xanım olaraq dost ölkədən gəlmisiniz. Xahiş edirəm, sualınızda məsuliyyətli olasınız".

Daha sonra Bakıda keçirilən təntənəli Zəfər paradında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Arazı ayırdılar, qum ilə doyurdular, mən səndən ayrılmazdım, zülm ilə ayırdılar" misralarını söyləməsi ilə İran partladı və iç üzünü ortaya qoydu. Şeir parçasına Cavad Zərif özünün Twitter hesabında atmaca ilə cavab yazdı: "Ərdoğana deyilməyibmi ki, Bakıda səhv oxuduğu şeir Arazın şimal bölgələrinin öz doğma torpaqları olan İrandan zorla ayrılmasından bəhs edir! O Azərbaycan Respublikasının müstəqilliyinə qarşı danışdığını başa düşmədimi? Heç kim əziz Azərbaycanımız haqqında danışa bilməz", - yazan İran Xarici işlər naziri əslində Güney Azərbaycana yönəlik misralardan qıcıqlandığını gizlədə bilmədi.

Ardınca İran molla rejiminin Zəngəzur dəhlizinin açılması ilə bağlı narazılıqları ilə qarşıladıq. Ermənistanın sərsəm hakimiyyət nümayəndələrini qızışdırmalarını, onlara ağıl vermələrini, 10 noyabr Bəyannaməsinə əsasən ermənilərin vəzifələrini həyata keçirmələrinə maneçilik yaratdıqlarını müşahidə etdik. İran bu dəhliz üçün tərəfindən yol verilməyəcəyi fikrini də ürəyində saxlaya bilmədi. Bəli, bütün bunlar Böyük Zəfərdən sonra molla rejiminin kürkünə birə düşməsindən qaynaqlanmadımı?

Tehranda Azərbaycan səfirliyində Orxan Əsgərovun qətli isə hadisələrin kulminasiya nöqtəsi oldu. Bu hadisələri xatırlatmaqda məqsədim 17 il öncəyə deyil, elə ötən 17 ildə bir-birinin ardınca cənubda yaşayan soydaşlarımıza İran molla rejiminin təhqir və təhdidlərinin davam etdiyini vurğulamaqla yanaşı, həm də bu taydakı azərbaycanlıların isti aşına su çiləməsini vurğulamaq, onlara bu kimi hallara nə zaman son qoyacaqları sualını verməkdir.

Həqiqətən də Azərbaycan İranla həmişə qonşuluq münasibətlərini qoruyub saxlayıb. Bütün bunların fonunda baş verən hadisələr yersiz və əsassızdır. Bu səbəbdən də İranın molla rejiminin hərəkətlərinə çəki-düzən verməsinin vaxtı çatıb. Çünki qonşu ilə münasibətsizliyin zamanın heç bir dönəmində faydası olmağını bütün dünya bilir.

***Mətanət Məmmədova***



AFƏT

## Haaqa məhkəməsində ermənİ tamaşası

***Ermənistan artıq ikinci dəfədir ki, BMT-nin Beynəlxalq məhkəməsinə Azərbaycan qarşısında tələb irəli sürmək üçün müraciət edib. Onlar bu dəfə Laçın yolu ilə bağlı hay-küy qaldırmaq düşüncəsindədirlər. Lakin daha bir fakt budur ki, məhkəmə sırf humanitar məqsədlərlə bağlı qərar verib və bu qərara qədər də Azərbaycan humanitar məsələlərə yer ayırıb. Faktlar isə kifayət qədərdir. Bu baxımdan, məhkəmənin çıxardığı hər hansı bir qərar, sadəcə, formal kağızdır...***

### Ermənistan hələ də nəyəsə ümid edir (?)

Məsələn, Haaqa məhkəməsi Azərbaycanın öz suveren ərazisində buraxılış məntəqəsi yerləşdirməsinə görə hər hansı qərar verə bilməz. Çünki bu qərar Azərbaycanın ərazi bütövlüyünə qarşı atılan addım ola bilərdi!

Ermənistan isə hələ də nəyə isə ümid edir və tamaşa sərgiləyir. Onlara hələ də çatmır ki, məntəqə Azərbaycanın xarici dövlətlə - Ermənistanla şərti sərhədlərdə qurulub və bu da Azərbaycanın birmənalı hüququdur!

### Azərbaycanın sərhəd buraxılış məntəqəsi öz işini davam etdirəcək

Beləliklə, Ermənistanın növbəti müraciətləri saman çöpündən yapışmağa bənzəyir. Uzağı Haaqa məhkəməsi yenidən humanitar məqsədlərin reallaşdırılması üçün qərar verər və ermənilər də 2-3 gün bu qərar ətrafında "qalibiyyət sevinci" yaşayar, amma fakt dəyişilməz qalacaq - Azərbaycanın sərhəd buraxılış məntəqəsi öz işini davam etdirəcək.

Əslində, ermənilər özləri də nəyin-necə olduğunu çox gözəl anlayırlar. Onlar da bilirlər ki, bütün bunlar boş işlərdir. Sadəcə, BMT-nin Beynəlxalq məhkəməsinə müraciətin edilməsi bir tamaşadır - Ermənistan hakimiyyətinin iş gördüyünü sərgiləmək tamaşası. Lakin bu tamaşanın nə qədər uğursuz olması da göz önündədir...



# Uşaqlar evdən qaçır, yoxsa qaçırılır?

**Nərmin hadisəsinin baş verdiyi kəndin qonşuluğundakı kənddə yeniyetmə itkin düşüb**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*









***Ötən həftədən ölkə mediasının gündəminə yeni bir itkin xəbəri çıxdı. Məlumatda Tovuz rayon Aşağı Quşçu kənd sakini, 2010-cu il təvəllüdlü Əfsanə Tağıyevanın may ayının 18-də yaşadığı evdən çıxaraq bir daha geri qayıtmaması barədə bildirilirdi. Hadisənin üzərindən 5 gün ötməsinə baxmayaraq, Əfsanədən hələ də bir xəbər yoxdur. Əfsanənin evdən öz istəyi ilə getməsi barədə ağızdan-ağıza məlumatlar dolaşır. Əfsanənin evdən qaçması yaxud qaçırılması hüquq-mühafizə orqanlarının araşdırmalarından sonra bilinəcək.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan mətbuata verilən məlumata görə, hazırda Əfsanə Tağıyevanın yerinin müəyyən olunması istiqamətində axtarış tədbirləri davam etdirilir. Məlumat üçün qeyd edək ki, 3 il əvvəl Nərmin Quliyeva hadisəsi də Tovuzda, Dondar Quşçu kəndində baş vermişdi. Dondar Quşçu və Aşağı Quşçu kəndləri qonşudur, iki kəndi bir-birindən dəmiryol keçidi və kiçik bir bazar ayırır.

## Uşaqlar təhlükəli mühitə düşə bilər

Evdən qaçan yeniyetmələrin əksəriyyəti ailədaxili təzyiqdən və zorakılıqdan bu addımı atdığını deyir. Lakin araşdırmalar onu göstərir ki, əsasən, rayonlardan qaçıb Bakıya gələn yeniyetmələrin evdən qaçmasına səbəb paytaxtda həyatın daha cəzbedici və mühitin sərbəst olmasına inanmalarıdır. Evdən qaçan yeniyetmələrin əksəriyyəti aktiv sosial şəbəkə istifadəçiləri olur.

Evdən qaçan yeniyetmənin kimliyi müəyyən olunandan, tapılıb ailəsinə təhvil veriləndən sonra Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən icra hakimiyyətlərinə tapşırıqlar verilir, komitənin regionlarda olan mərkəzlərinin psixoloqları həmin ailələrlə işləyir. Əsas məsələ onların cəmiyyətə reinteqrasiyasıdır və reabilitasiya keçilməsi, əsasən də, psixoloji dəstək göstərilməsidir. Əgər hüquqi dəstək varsa, komitə bu sahədə də kömək göstərir. Doğrudur, mərkəzi qurum olaraq bu barədə idarəetməni AQUPDK təşkil edir, amma yerlərdə İcra Hakimiyyətləri də bu istiqamətdə işləməlidir. Yerli icra və təhsil orqanları kontakt şəkildə iş apararaq daha yaxşı nəticə əldə edə bilərlər.

Yeniyetmələrin evdən qaçmasına, adətən, zorakılığın səbəb olmasını demək olar. Fiziki, mənəvi və ya iqtisadi asılılıq zəminində yaranan zorakılıq yeniyetməni evdən uzaqlaşdıran başlıca səbəbdir. Ailə böyükləri arasında baş verən zorakılığa şahid olan yeniyetmə bu səbəbdən evdən qaça bilər, amma uşaqların internetin, virtual dostların və çevrənin, habelə real çevrəsinin təsiri altına düşməsi faktı da var. Yanlış xəbərlərin təsirinə düşən yeniyetmələr var, hətta özünü öldürmə həddinə çatdırma halları da baş verir, bunu nəzərə alaraq internet təhlükəsizliyi ilə əlaqədar işlər də aparılır.

Yeniyetmələrin bəzilərinin ona uyğun olmayan mühitə, dini sektalara düşməsi və oradan təsirlənməsi halları da olur. Elə sektalar olur ki, yeniyetmə onun əhatəsinə düşür və ailəsindən uzaqlaşır, bu çevrə yeniyetmələrin beynini, düşüncəsini dəyişir, təhsildən uzaqlaşdırır. Məktəblərdə ciddi iş aparılmalıdır. Təhsil uşaqlara zorakılığın normal bir şey olmamasını tədris etməlidir, ailələrdə iş aparılmalıdır.

Evdən qaçan uşaqlar arasında 13-15 yaşlı yeniyetmələr üstünlük təşkil edir. Onların hər biri fərqli səbəbdən evdən qaçır - kimisi evdəkilərlə yola gedə bilmir, kimisi ailə təzyiqini əsas gətirir, bəziləri də sırf azadlıq axtaranlardır. Səbəbi hər nə olur-olsun, yetkinlik yaşına çatmayan şəxslərin evdən getmələri təhlükəlidir. Ev ən etibarlı sığınacaqdır.

## Uşaqlar evdən qaçmağa məcbur qalır?

Bir çox yeniyetmə ailədaxili münaqişələrdən uzaq qalmaq üçün evdən qaçmağa üstünlük verirlər. Evdən qaçmaq yeniyetmə üçün ciddi travma riski yaratmaqla yanaşı, valideynlərin də narahatlığına səbəb olur. Yeniyetməlikdə evdən qaçmağın səbəblərini ümumiləşdirdikdə, təxminən belə bir mənzərə yaranır:

- Həyəcan və macəra yaşamaq istəyi,
- Ailədə zorakılığa məruz qalma,
- Onlayn çevrəsinin, filmlər, kompüter oyunlarının təsiri
- Ailənin uşağa maddi və mənəvi dəstək göstərməməsi;
- Evdən qaçan bir dostunun hərəkətini təkrarlamaq istəyi və ya buna məcbur edilməsi.

Təcrübə göstərir ki, evdən qaçan uşaqlar çox vaxt yaşadıqları macəranı maraqlı, həyəcanlı günlər kimi ifadə edir. Onlar evdən kənarda onları gözləyən təhlükə barədə çox az düşünürlər. Təəssüf ki, bu təhlükəni hiss edəndə, geri dönməyə çalışanda başlarına bədbəxt hadisələr də gələ bilir.

Ümumiyyətlə, pandemiyadan sonrakı dövrdə Azərbaycan ailələrində tarix boyu görünməmiş gərginlik müşahidə edilir: Bizim ailələrdə heç vaxt belə gərginlik olmayıb, hətta ağır müharibə illərində, aclıq illərində belə indiki kimi problemlər olmayıb. Ailədaxili intizam anlayışı məhv olub, dünyada azadlıq və demokratiya haqqında danışa-danışa ailələri parçalayan cürbəcür institutlar peyda olub. Bu istiqamətdə KİV-in və cəmiyyətin rolu da danılmazdır. Media ailə məsələsinə həssas yanaşmır, ailə sirləri anlayışı yoxdur, uşaqların həssaslığı, yeniyetmələrin dəyişkən psixoloji vəziyyətləri nəzərə alınmır.

Belə davam edərsə, ailəsindən qaçan uşaqların sayı artacaq, başqasına fiziki zorakılıq tətbiq edən yeniyetmələr çoxalacaq, ailə intizamı, bütövlüyü məsələsi keçmişə göndəriləcək. Ailələrin sosial-psixoloji vəziyyəti barədə ciddi sosial araşdırmalar edilməli, problemlə birbaşa peşəkarlar işləməlidir. Bunun üçün xüsusi komissiyalar yaradıla bilər, komissiyalar icra hakimiyyətlərinin strukturunda fəaliyyət göstərə bilər, onlar ailələr ilə işləyə bilərlər. Bununla bağlı metodika hazırlanmalıdır, iş mexanizmi qurulmalıdır. Bu vəsaiti isə konkret olaraq ölkənin sosial-psixoloji durumuna uyğun formada peşəkarlar hazırlanmalıdır.

***Lalə Mehralı***

SƏS
23 may
2023-cü il

# Azərbaycana turist axını artıb

Bu ilin yanvar-aprel aylarında xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı ötən ilin eyni dövrü ilə müqayisədə 23,2 % artaraq 493,1 min nəfər olub.SİA bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.Məlumata görə, Rusiyaya gedən Azərbaycan vətəndaşlarının sayı 1,8 dəfə, Gürcüstana gedənlərin sayı 41,6 %, Türkiyəyə gedənlərin sayı 5,5 % artıb, İrana gedənlərin sayı isə 26,5 % azalıb. Ölkə vətəndaşlarının 38,9 %-i Türkiyəyə, 24,1 %-i Rusiyaya, 9,4 %-i Gürcüstana, 7,8 %-i İrana, 19,8 %-i digər ölkələrə səfər edib. Gedənlərin 69,6 %-ni kişilər, 30,4 %-ni qadınlar təşkil edib.2023-cü ilin yanvar-aprel aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının 29,5 %-i dəmir yolu və avtomobil, 67,8 %-i hava, 2,7 %-i isə dəniz nəqliyyatından istifadə edib.



# Hansı xəstəlikdən əziyyət çəkənlər ana ola bilməz?

ARAŞDIRMA



**Hamiləliyin qarşısını alan səbəbləri bilmək və lazımi tədbirləri görmək problemi erkən mərhələdə həll etməyə imkan verir. Bəs, hansı xəstəlikdən əziyyət çəkənlər ana ola bilməz? SİA mövzu ilə bağlı araşdırma aparıb.**

Türk doğum və ginekologiya mütəxəssisi Dr.Can Kosal hamiləliyin yaranmasının qarşısını alan 9 ən əhəmiyyətli səbəbdən danışıb. Həmin səbəblər bunlardır:

## Hormonal pozuntular

- Qadınlarda yumurtanın inkişafı və çatlamasına səbəb olan hormon səviyyəsinin pisləşməsi,
- Gənc qızların ilk menstruasiya dövründə və menopoza yaxın qadınlarda yumurta əmələ gəlməsi və çatlamasında problemlər,
- Anovulyasiya, yəni müntəzəm menstruasiya olan qadınlarda yumurtaların inkişaf edə bilməməsi,
- Polikistik yumurtalıq sindromu kimi hormonal pozğunluqları olan bəzi xəstəliklərdə müntəzəm yumurta inkişafının olmaması,
- Yumurta istehsalını təmin edən hormonların pozulmasına səbəb olan həddindən artıq kökəlmək və ya qısa müddətdə arıqlamaq, stress, şüursuz ağır fəaliyyətlər, erkən menopoz və müxtəlif xəstəliklər sonsuzluğa səbəb olur.

## Uşaqlıq və boru xəstəlikləri

- Boru kanallarında cərrahi müdaxilələr, əvvəlki iltihabi xəstəliklər, apandisit, bağırsaq və ya digər səbəblərlə aparılan qarın əməliyyatları və xlamidiya kimi cinsi yolla keçən bakteriyaların iltihabı nəticəsində yaranan maneələr.

-Uterus əzələlərinin anormal böyüməsi nəticəsində əmələ gələn, yumurtalıqların yerdəyişməsinə və boruların tıxanmasına səbəb ola bilən miyomlar.

- Miyomalar hamiləliyin qarşısını almaqla yanaşı, döllənmiş yumurtanın uterusa yapışmasının qarşısını alaraq hamiləliyin baş verməsini məhdudlaşdıra bilər.

- Endometrioz xəstəliyi (şokolad kisti) uşaqlığın xaricində uşaqlıq yolunun daxili qişasının böyüməsi nəticəsində yaranır. Cəmiyyətdə qadınların 5%-də aşkar edilən xəstəlik, hamilə qala bilməyən insanların təxminən 30%-nin mühüm problemidir.

- Uşaqlıq yolunda inkişaf pozğunluğu, uşaqlığın qoşa olması, uşaqlıq yolunda pərdə olması, uşaqlığın qeyri-kafi inkişafı kimi problemlər.

## Metabolik xəstəliklər

- Şəkərli diabet,
- İmmunitet sisteminə təsir edən problemlər,
- Qaraciyər və böyrək xəstəlikləri,
- Kistik fibroz kimi genetik xəstəliklər,
- Qalxanabənzər vəzi xəstəlikləri kimi problemlər hamiləlik baş vermiş olsa belə, uşağın düşməsi və vaxtından əvvəl doğuş riskini artırır. Bu cür metabolik, xroniki və endokrin xəstəlikləri olan insanlar hamiləliyin planlaşdırılmasından əvvəl müalicə edilməlidir.

## Qadınlarda yaş məsələsi

Qadınlar bütün həyatlarını davam etdirəcək qədər yumurta ehtiyatı ilə doğulurlar. Yaş irəlilədikcə bu ehtiyatlar tədricən azaldığı halda, 35-40 yaşdan sonra say azalması ilə yanaşı, yumurta keyfiyyəti də azalmağa başlayır. Qadınların yaşı birbaşa yumurtaların sayı və keyfiyyətindən asılıdır.

Sperma keyfiyyətinin pozulması

Hamiləliyin qarşısını alan başqa bir səbəb ereksiya səbəbiylə kişilərdə sperma keyfiyyətinin azalmasıdır. Sperma keyfiyyətinin və sayının azalması, erektil disfunksiya və daha nadir xəstəliklər kişi sonsuzluğunun ən vacib 3 səbəbidir. Bu gün çox rast gələnən varikosel adlanan xaya damarlarının böyüməsində xayanın temperaturu yüksəlir və xayalardan sperma hüceyrələrinin istehsalı və keyfiyyəti pisləşir. Bundan əlavə, kişilərdə əvvəlki qasıq yırtığı və ya uşaqlıqda enməmiş xayalar üçün edilən əməliyyatlar da sperma keyfiyyətində və sayında anormallıqlara səbəb olur.

İçki və siqaret istifadəsi

Spirt və siqaretin həddindən artıq istehlakının həm qadınlarda, həm də kişilərdə sıxılma amili yaradaraq hamiləliyin qarşısını aldığı müəyyən edilib. Siqaret qadınlarda hüceyrə məhvini artırsa da, hüceyrə bərpasını yavaşlatdığı üçün erkən menopozun da səbəblərindəndir. Bundan əlavə, hamiləlik dövründə siqaret və spirtli içkilərin həddindən artıq istifadəsi körpənin vaxtından əvvəl doğuşuna səbəb olur.



## Həddindən artıq zəiflik və ya piylənmə

Həddindən artıq arıqlıq və ya piylənmə menstruasiya dövrünü poza və hamiləlik şansını azalda bilər. Kişilərdə piylənmə isə sperma sayının və keyfiyyətinin azalmasına səbəb olduğu üçün uşaq sahibi olma şansını azaldır.

## Vaginal quruluq

Vaginal quruluğu olan qadınların istifadə etdiyi sürtkü yağları sperma keyfiyyətinə mənfi təsir göstərərək hamiləliyi gecikdirən əhəmiyyətli faktorlardandır.

## Xərçəng dərmanları

Xərçəng müalicəsində istifadə edilən kimyaterapiya dərmanları və şüa müalicəsi sperma sayını və keyfiyyətini pozur. Həmçinin, bu dərmanlar qadınların menopoza girməsinə səbəb olur. Bu tip xəstəliyi olan qadınların və ya kişilərin müalicəyə başlamazdan əvvəl yumurta və sperma dondurma üsulları ilə müalicə olunduqdan sonra uşaq sahibi olma şansı var.

Cərrah, mama-ginekoloq Ləman Əliyeva: "Bu, bir az qeyri-müəyyən mövzudur. Məsələn, əgər şəxsin anadangəlmə, yaxud genetik olaraq uşaqlığı (matkası) olmazsa, o, 100 faiz hamilə qala bilməz. Digər hallarda isə tibbdə hər bir şeyin müalicəsi var. İndi hər bir halda süni mayalanma var. Yumurta hüceyrəsi olmadıqda da donor yumurta hüceyrə götürülür. Atada sonsuzluq olduqda da spermadan donor götürürlər.

Hətta ana ağır ürək-damar sistemi, böyrək çatışmazlığı xəstəsi, yaxud ruhi xəstə olarsa, bəzən bu halda da hamilə qalıb doğum edən xəstələr var. Onu da qeyd edim ki, indi onkoloji və diabet xəstələri də ana ola bilir. Bu, sadəcə, onun onkoloji xəstəliyin hansı mərhələsində olmasından asılıdır".

***Ayşən Vəli***

# Hamiltona 40 milyonluq təklif!

**Formula 1 yarışlarına uğursuz başlayan, hazırda Redd Bull-un gerisində qalan Ferrari, sürpriz transfer həmləsinə hazırlaşır. Uzun müddətdir ki, çempionluğa həsrət qalan İtaliya komandası bu həsrətinə son qoymaq üçün daha təcrübəli və sürətli sürücü transfer etməyi hədəfləyir.**

"Daily Mail" nəşrinin yazdığına görə, italyan komandası 7 dəfə dünya çempionu olan Hamiltonu heyətinə cəlb etmək istəyir. Bunun üçün italyanlar 40 milyon funt sterlinq ödəməyə hazırlaşır. İngilis nəşrinin yazdığına görə, artıq təcrübəli Formula 1 sürücüsü ilə ilkin danışıqlar başlayıb.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**